QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyası çərçivəsində xüsusi sessiyada iştirak edib

3

Prezident BMT tribunasından elan etdi: Biz həm müharibədə, həm də sülhdə qələbə qazandıq!

2

Prezident İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib

№ 175 (7343)

26 sentyabr 2025-ci il.
Qiyməti 60 qəpik

Dəyişən mövqelər

Trampın Ukrayna ilə bağlı ritorikası niyə dəyişdi?

8

Əsrə bərabər qələbənin zirvə nöqtəsi

4

Paralel siniflər - biri şəhərdə, biri kənddə...

14

Aborta "dur!" demək öz əlimizdədir: necə?

15

Ödənişli zolaqlar yaradılır - tıxaclara çarə olacaqmı?

16

Öldürmək dərsi



6

Prezident BMT tribunasından elan etdi: Biz həm müharibədə, həm də sülhdə qələbə qazandıq!

Prezident lham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib

Azərbaycan müstəqilliyini qazandıqdan sonra beynəlxalq təşkilatlara üzv olmaq, onların işlərində iştirak etmək, səmərəli iş qurmaq, eləcə də ölkəmizin həqiqətlərinin dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Odur ki, bu imkanlardan geniş istifadə edilməsi zəruridir. Bu əməkdaşlıq siyasi, iqtisadi, mədəni, humanitar, hərbi və s. sahələri əhatə edərək, çoxşaxəli xarakter daşıyır və Azərbaycanın maraqlarının daha dolğun ifadə olunmasına, beynəlxalq aləmdə aparıcı rol oynayan dövlətlər qarşılıqlı əlaqələrin möhkəmlənməsinə mühüm təsir göstərir. Azərbaycan bir çox beynəlxalq təşkilatlarla yanaşı, Birləşmiş Millətlər Təşkilatının da üzvüdür. BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilmiş 46-cı sessiyasında Azərbaycanın bu təşkilata üzv olması ilə bağlı qətnamə qəbul edilib. BMT-nin Nyu-Yorkdakı iqamətgahı qarşısında təşkilatın 181-ci üzvünün - Azərbaycanın dövlət bayrağı qaldırılıb. 1992-ci il martın 6-da Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin fəaliyyətə başlaması ölkəmizin bu qurum ilə əməkdaşlığının qurulmasına əlverişli imkan yaradıb.

BMT-yə üzv olduqdan sonra Azərbaycan dayanıqlı inkişafa dair müştərək öhdəliyimizə öz töhfəsini verməklə bərabər, BMT Nizamnaməsində təsbit olunmuş prinsip və məqsədlərə uyğun olaraq hərtərəfli və geniş əhatəli gündəlikdə fəal iştirakını davam etdirib. Bu səylər qlobal səviyyədə də tanınıb və qəbul olunub.

Bildiyimiz kimi, sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərinə işgüzar səfər edib.

Dünən isə Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 80-ci sessiyasında çıxış edib. Dövlətimizin başçısı öz çıxışında beynəlxalq ictimaiyyətə çağırış edib. "Gəlin, birlikdə ikili standartların aradan qalxdığı, ədalətin selektiv olmadığı, qanunun aliliyinə hörmət edildiyi, sülhün təkcə sözlərlə deyil, əməli addımlarla təmin olunduğu bir dünya quraq. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan yeni bir dövrə qədəm qoyub. "Biz həm müharibədə, həm də sülhdə qələbə qazandıq. İşğala son qoyduq və bərpa işlərinə başladıq. Ədalət zəfər çaldı, suverenlik möhkəmləndi və sülh de-fakto təmin olundu. Biz bu müsbət təcrübəmizi paylaşmağa hazırıq.

Azərbaycan qlobal səviyyədə humanitar yardım səyləri ilə qürur duyur. Biz təbii fəlakətlərdən, münaqişələrdən və səhiyyə sahəsində böhranlardan zərər çəkən ölkələrə yardım göstəririk. Azərbaycan COVID-19 pandemiyasına qarşı cavab tədbirləri istiqamətində 80-dən çox ölkəyə qoruyucu avadanlıqlar, tibbi cihazlar və vaksinlər ianə edib və maliyyələşdirib", - deyə dövlətimizin başçısı vurğulayıb. Azərbaycan Prezidenti qeyd edib ki, hələ 2022-ci ildə Xəzəryanı Dövlətlərin Zirvə Toplantısında mən Xəzər dənizinin ekoloji vəziyyətinin pisləşməsi məsələsini qaldırmışdım. Bu gün vəziyyət daha pisdir. Xəzər dənizi sürətlə kiçilir. Əsas səbəb iqlim dəyişmələri deyil. Dövlətimizin başçısı qeyd edib ki, gözlənilməz nəticələri olan ekoloji fəlakətin qarşısını almaq üçün sahilyanı dövlətlərin birgə səylərinə ehtiyac var. Azərbaycan, həmçinin bu problemin həlli istiqamətində BMT ilə də sıx əməkdaşlığa hazırdır. Bu yaxınlarda iki aparıcı beynəlxalq reytinq agentliyi ("Moody's" və "Fitch") Azərbaycanın reytinqini artırdı. Dövlətimizin başçısı vurğulayıb ki, bu, ölkəmizdə iqtisadi dayanıqlılığın, güclü fiskal intizamın və əlverişli investisiya mühitinin səviyyəsini təsdiq edir. Xarici borcumuz ÜDM-in cəmi 6,5 faizini təşkil edir ki, bu da dünyada ən aşağı göstəricilərdən biridir. Azərbaycanın valyuta ehtiyatları xarici borcumuzdan təxminən 16 dəfə artıqdır.

"Azərbaycan, həmçinin Günəş, külək və su elektrik enerjisi kimi bərpaolunan enerji mənbələrinə böyük sərmayələr cəlb edir.Dövlətimizin başçısı qeyd edib ki, 2030-cu ilə qədər enerji istehsalımızın təxminən 40 faizi bərpaolunan mənbələr hesabına təmin olunacaq."

ƏLAQƏLƏRİN İNKİŞAFI ÜÇÜN YENİ PERSPEKTİVLƏR

Nyu -Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müxtəlif məzmunlu görüşlər keçirib. Nyu-Yorkda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bolqarıstan Respublikasının Baş naziri Rosen Jelyazkov ilə görüşü olub. Baş nazir Rosen Jelyazkov Azərbaycanla Bolqarıstan arasında siyasi əlaqələrin mükəmməl səviyyədə olduğunu deyib. Prezident İlham Əliyev də öz növbəsində münasibətlərimizin ənənəvi dostluq və tərəfdaşlıq xarakteri daşıdığını qeyd edib. Söhbət zamanı enerji sahəsində hazırkı uğurlu əməkdaşlığımızdan məmnunluq ifadə edilib, bu sahədə əlaqələrin inkişafı üçün yeni perspektivlərin olduğu bildirilib. Görüşdə Azərbaycanla Bolqarıstan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb. Nyu-Yorkda ABŞ Ticarət Palatasının baş vitse-prezidenti Kuş Çoksi ilə görüş də maraq doğurub. Söhbət zamanı Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq müstəvisinə qalxması, hazırda iqtisadi-ticari əlaqələrimizin genişləndirilməsi üçün böyük imkanların olduğu bildirilib.

Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında imzalanmış Anlaşma Memorandumundan irəli gələn enerji, bağlantılar, süni intellekt və digər sahələrdə əməkdaşlığa dair müzakirələr aparılıb. Azərbaycanın və ABŞ-ın biznes dairələri arasında birbaşa əlaqələrin yaradılmasının və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin təşkilinin vacibliyinə toxunulub, turizm sahəsində əməkdaşlığın inkişafı üçün böyük potensialın olduğu qeyd edildi. Kuş Çoksi biznes imkanlarının dəyərləndirilməsi üçün geniştərkibli heyətlə tezliklə Azərbaycana səfər etmək niyyətində olduğunu bildirib.

Belə ki, dövlətimizin başçısının qlobal infrastruktur investisiya idarəetmə şirkəti "Global Infrastructure Partners"in təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesi ilə görüşü olub. Görüşdə infrastruktur sahəsində beynəlxalq tərəfdaşlıq imkanları və bu sahəyə yönələn birgə investisiyaların regional iqtisadi əlaqələrin genişləndirilməsində rolu müzakirə edilib. Prezident İlham Əliyev 2024-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə bu şirkət arasında qurulan uğurlu tərəfdaşlığı vurğulayaraq, xüsusilə İtaliyanın aparıcı sürətli dəmir yolu operatoru "Italo"ya yatırılan birgə sərmayəni səmərəli əməkdaşlığın nümunəsi kimi qiymətləndirib. Dövlətimizin başçısı, həmçinin şirkətin hava limanlarının idarə olunması, enerji keçidi və süni intellekt infrastrukturu kimi sahələrdə təcrübəsinin gələcək əməkdaşlıq üçün böyük imkanlar açdığını vurğulayıb. Adebayo Oqunlesi Azərbaycanın strateji coğrafi mövqeyinin və dayanıqlı inkişaf prioritetlərinin infrastruktur sahəsində uzunmüddətli investisiyalar üçün mühüm imkanlar yaratdığını diqqətə çatdırıb. O, rəhbərlik etdiyi şirkətin enerji keçidi, nəqliyyat və rəqəmsal infrastruktur sahələrində Azərbaycanla əməkdaşlığı dərinləşdirməkdə maraqlı olduğunu bildirib.

BEYNƏLXALQ KAPİTAL ÜÇÜN MÜHÜM İMKANLAR

Nyu-Yorkda dünyanın ən iri və nüfuzlu qlobal investisiya menecerlərindən biri olan "Franklin Templeton" şirkətinin baş icraçı direktoru və prezidenti Cenni Conson ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirdiyi görüşdə qlobal investisiya mühiti, inkişaf etməkdə olan ölkələrin kapital bazarlarına çıxış imkanları və beynəlxalq tərəfdaşlıqların iqtisadi transformasiyada rolu ətrafında fikir mübadiləsi aparılıb. Söhbət zamanı Azərbaycanla bu şirkət arasında əməkdaşlığın gələcək istiqamətləri müzakirə olunub. Cenni Conson ölkəmizin son illərdə həyata keçirdiyi iqtisadi layihələrin və inkişaf istiqamətində gördüyü tədbirlərin beynəlxalq kapital üçün mühüm imkanlar yaratdığını bildirib. O, həmçinin Azərbaycanda investorlar üçün formalaşmış sabit və əlverişli mühiti yüksək qiymətləndirərək, bunun uzunmüddətli tərəfdaşlığa möhkəm zəmin yaratdığını qeyd etdi.

Görüşdə "Franklin Templeton"un kapital bazarları, infrastruktur, daşınmaz əmlak və bərpaolunan enerji sahələrində çoxillik və uğurlu təcrübəsinin Azərbaycanın iqtisadi və maliyyə, həmçinin yaşıl gündəliyinin icrasına töhfə verə biləcəyi vurğulandı. Prezident İlham Əliyev şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə sıx əməkdaşlığına toxunaraq, mövcud tərəfdaşlığın ölkəmizin kapital bazarlarının dərinləşdirilməsi, regionun investisiya potensialının gücləndirilməsi və dayanıqlı inkişafı baxımından da mühüm əhəmiyyət daşıdığını bildirdi. Dövlətimizin başçısı bu şirkətin alternativ investisiya sahəsindəki təcrübəsinin və xüsusilə region ölkələrində həyata keçirdiyi uğurlu layihələrin əhəmiyyətinə toxunaraq, bu xüsusda geniş qarşılıqlı əməkdaşlıq imkanlarının olduğunu vurğuladı.

Zümrüd BAYRAMOVA

Birinci xanım Mehriban Əliyeva BMT Baş Assambleyası çərçivəsində xüsusi sessiyada iştirak edib

Sentyabrın 24-də Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində "Xərçəngdən və digər ağır xəstəliklərdən əziyyət çəkən uşaqların həyatda qalması və əzablarının azaldılması üzrə qlobal hərəkat" (Global Movement to Improve Survival and Reduce Suffering for Children with Cancer and Other Catastrophic Diseases) adlı xüsusi sessiya təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Özbəkistan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən təşkil olunan tədbirdə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi. Tədbirin təşkilatçılarından olan Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva və Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus xüsusi sessiyada gündəliyə çıxarılan mövzunun bu gün bütün dünyadakı aktuallığından danışdılar.

Türkiyənin birinci xanımı Əminə Ərdoğan və digər çıxışçılar da mövzu ilə bağlı fikirlərini bölüşdülər.

Qeyd edildi ki, sessiyanın təşkilindən əsas məqsəd dünya ictimaiyyətinin diqqətini bu qlobal problemə yönəltmək, onun nə dərəcədə təhlükəli olduğunu xatırlatmaqdır. Problemin aktuallığı ildənilə artır. Statistikaya əsasən, hər il dünyada təxminən 200 min uşaq xərçəng xəstəliyinə tutulur və onların yarısı dünyasını dəyişir. Tədbir panel iclaslarla davam edib.

Şarl Mişel: Sülh sazişi Avropa İttifaqı ilə Qafqaz arasında əlaqənin inkişafına təkan verəcək

"Bir neçə il bundan əvvəl Azərbaycan və Ermənistan üçün bir-birini daha yaxşı başa düşmək və məkan tapmaq son dərəcə çətin idi. Mən Brüssel formatı ilə əlimdən gələni etməyə çalışmışam". Bu sözləri AZƏRTAC-a açıqlamasında Avropa Şurasının keçmiş prezidenti Şarl Mişel deyib. O, bildirib ki, Brüsseldə Azərbaycanla Ermənistanın danışıqlar aparması üçün bır sıra fürsətlər baş tutub: "Bəzən çox çətin idi, çünki fikir ayrılığı var idi. Amma mən hiss etdim ki, irəliləyiş əldə etmək və sülh sazişinə doğru müəyyən addımlar atmaq üçün iradə var. Mən çox şadam ki, bu addımlar atılır. Bilirəm ki, hələ bəzi çətinliklər var, amma ərazi bütövlüyünü möhkəmləndirmək, qarşılıqlı suverenliyin tanınmasını təmin etmək üçün çalışmaq vacibdir. Qarşılıqlı əlaqə çox vacib məsələdir, çünki uzunmüddətli perspektivdə iqtisadi layihələr nə qədər çox olarsa, investisiyalar da bir o qədər artacaq. Mən çox şadam ki, bizim Ermənistanla Azərbaycan arasında birbaşa danışıqlara kömək etmək üçün bəzi fürsətlərimiz olub. Ümid edirəm ki, gələcəkdə bu irəliləyişləri möhkəmləndirmək mümkün olacaq", - deyə Şarl Mişel əlavə edib

O, iki ölkə arasında Zəngəzur dəhlizinin açılması barədə suala cavabında bildirib ki, stabillik nə qədər çox möhkəmlənərsə və sülh sazişi reallaşarsa, bu, Avropa İttifaqı ilə həm Qafqaz, həm də Mərkəzi Asiya arasında əlaqənin inkişafına təkan verəcək.

Əsrə bərabər qələbənin zirvə nöqtəsi

Azərbaycan dövləti yeni uğurları, nailliyyətləri ilə dünyada ən inkişaf edən, azad, demokratik dövlətlərdən olduğunu nümayiş etdirir. Bizə bu uğurları, qələbələri yaşadan isə söz yox ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət və bu siyasəti Prezident İlham Əliyevin möhtəşəm şəkildə davam etdirməsidir. Tam qətiyyətlə demək olar ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən müdrik siyasət nəticəsində xalqın istək və arzusu olduğu bütün hədəflərə nail olunub. Yəni Prezident İlham Əliyev 2003-cü ilin 15 oktyabrında keçirilən prezident seçkilərində xalqa verdiyi bütün vədlərini yerinə yetirib. Prezident İlham Əliyev seçki ərəfəsi xalqla görüşündə demişdi: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm".

Zəfərə gedən yolun başlanğıcı

2003-cü ildən sonra daha da inkişaf edən Azərbaycan Cənubi Qafqaz regionunun ən sürətlə inkişaf edən, qüdrətli, lider dövlətinə çevrildi. Azərbaycan Ordusu 2016-cı ilin dördgünlük Aprel döyüşlərində təcavüzkar və işğalçı Ermənistana, sözün əsl mənasında, dərs keçdi, "güclü erməni ordusu" mifini darmadağın etdi. Bunun üstündən cəmi iki il keçəndən sonra, 2018-ci ilin yayında Azərbaycan Ordusu bu dəfə Naxçıvan istiqamətində düşmənə böyük, sarsıdıcı zərbə vurdu, tarixi Günnüt əməliyyatı ilə düşməni çox əhəmiyyətli, strateji mövqelərdən, yüksəkliklərdən geri çəkilməyə məcbur etdi. Aprel döyüşlərində dastan yazan Azərbaycan Ordusu Günnüt əməliyyatında bir daha düşmənə, işğalçı Ermənistana öz gücünü, qətiyyətini, əzmini nümayiş etdirdi. Bir daha göstərdi ki, Qarabağ məsələsində güzəşt mövqeyi olmayacaq, bir qarış torpaq belə düşmənə verilməyəcək.

44 günlük Vətən Müharibəsində 30 illik erməni işğalına son qoyuldu, tarixi Azərbaycan torpaqlarında suverenliyimiz bərpa olundu. Parlaq qələbədən sonra işğaldan azad edilən ərazilərdə böyük quruculuq abadlıq işləri həyata keçirilir. Prezidentimiz İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunan şəhid ailələrinin, qazilərin maddi və mənəvi qayğıları ilə yanaşı, mənzil, məişət məsələləri ilə də öz həllim tapır. Şəhid övladlarının təhsil haqları dövlət tərəfindən ödənilir, şəhid ailələrinə güzəştli ipoteka kreditləri, torpaq sahələri, onlara müavinət, pensiya ilə yanaşı Prezident təqaüdü verilir. Rəsmi məlumata istinadən demək olar ki, parlaq hərbi qələbədən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 128 min şəxsə 348 min xidmət göstərilib. Belə ki, şəhid ailələri üzvləri və müharibə veteranları olan 105 min şəxsə 118 min aylıq sosial ödəniş, 23,1 min şəxsə birdəfəlik ödəmə təyin olunub. Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramı 5 dəfə genişlənib, onlara 6 050 mənzil və fərdi ev, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 528 avtomobil təqdim edilib.Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min şəxsə 64,3 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib.Müharibə ilə əlaqədar əlilliyi olan 2 151 şəxs 57,4 min reabilitasiya vasitəsi, o cümlədən 473 şəxs 566 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 21,9 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,6 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

44 günlük müharibədə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu

Yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycanın Prezidenti İlham Əliyevin müdrik, möhtəşəm siyasəti ilə əldə edilən uğurlarının, qələbələrinin ən uca zirvəsi 30 il işğal altında olmuş torpaqlarımızın 44 günlük Vətən Müharibəsi ilə azad edilməsidir. 2020-ci il sentyabr ayının 27-dən başlanan Vətən müharibəsi Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, ordumuzun qəhrəmanlığı sayəsində qələbə ilə başa çatdı.

44 günlük müharibədə 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsi sıradan çıxarıldı. Azərbaycanın Müzəffər Ordusu Qarabağın incisi olan Şuşa şəhərini, onun ardınca bir gündə 90-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı ağ bayraq qaldırmağa və kapitulyasiyaya məcbur etdi. Qarabağın statusunun müəyyən edilməsi məsələsi tarixin arxivinə getdi, Şuşa şəhərinin və onun işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq 8 noyabr Zəfər günümüz gələcək bütün tariximizdə daim yaşayacaq. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliyev bir daha Ulu Öndərimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin "torpaqlarımızın işğaldan azad edilməsi" vəsiyyətini böyük fəxarət və qürurla yerinə yetirdiyini göstərir. Bu qələbə xalq-iqtidar birliyinin nəticəsidir. Bu, "Qarabağ Azərbaycandır və nida" deyən Qalib Sərkərdəmizin "Dəmir yumruq" siyasəti ilə güclü Ordumuzun 44 gün ərzində qazandığı Qələbə Zəfəridir. 8 noyabr Zəfər Günü - 44 günlük Vətən müharibəsində Vətən uğrunda canından, qanından keçən igid əsgər və zabitlərimizin şəhidlik zirvəsinə ucaldığı milli qürurumuzun, yenilməzliyimizin nümayiş etdirildiyi gündür.

"Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox"

Azərbaycan Prezidenti, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu deyib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox".

2023-cü il oktyabrın 15-də Xankəndi şəhərində Azərbaycan Respublikasının Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev üçrəngli Bayrağımızı ucaltdı. Prezidentimiz Dövlət Bayrağını ucaltdıqdan sonra xalqa müraciətində demişdir: "Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək".

Əminliklə demək olar ki, Azərbaycan bundan sonra daha da inkişaf edəcək, daha böyük uğurlara, nailiyyətlərə imza atacaq. Çünki tutduğumuz yol düzgün və haqq yoludur.

İLHAM ƏLİYEV

Süni intellekt insanlara daha çox fayda verir, yoxsa zərər?

Texnologiyanın sürətlə inkişaf etdiyi dövrdə süni intellekt həyatımızın demək olar ki, hər sahəsinə daxil olub. Artıq bir çox insan gündəlik işlərini asanlaşdırmaq, vaxtına qənaət etmək və yeni biliklər əldə etmək üçün bu alətdən istifadə edir. Kimisi dərslərində köməkçi kimi yanaşır, kimisi iş prosesini daha səmərəli görmək üçün istifadə edir, digərləri isə sadəcə maraqlandığı suallara cavab tapmaq üçün müraciət edir. Amma sual yaranır: süni intellekt həqiqətən insanların işini asanlaşdırır, yoxsa müəyyən hallarda onları daha da çətin vəziyyətə salır? Maraqlıdır, insanlar əsasən hansı məqsədlərlə süni intellektə müraciət edir və onun təsiri ilə qərarlarını dəyişdirirlərmi? SİA bu mövzu ilə bağlı şəhər sakinləri arasında sorğu edib.

Şəhər sakini Səid Nəbiyev: ”Süni intellekt mənim gündəlik həyatımı kifayət qədər asanlaşdırır. Ən çox dərslə bağlı suallar üçün istifadə edirəm. Çünki bəzən axtardığım məlumatı internetdə tapmaq vaxt aparır,

amma burada qısa və aydın cavab alıram. Qərarlarımı dəyişdirdiyi olur, xüsusilə hansısa mövzuya başqa tərəfdən baxanda. Çox vaxt məsləhətçi kimi yanaşıram. Amma yenə də tam etibar etmirəm, öz araşdırmamı aparıram. Daha çox yeni biliklər, ideyalar, layihələrlə bağlı suallar verirəm. Mənə maraqlı olan sahələrdə istiqamət göstərməsi kömək edir. Açığı düşünürəm ki, gələcəkdə süni intellekt daha da inkişaf edəcək və biz onsuz keçinə bilməyəcəyik”.

Şəhər sakini Nəzrin Məmmədzadə: ”Süni intellekt həm öyrənmək, həm də əylənmək vasitəsidir. Çox vaxt dərslə bağlı mövzulara müraciət edirəm. Əlavə olaraq, ma-

raqlı mövzular haqqında məlumat alıram. Qərarlarımı bəzən dəyişir, xüsusilə də gözləmədiyim cavablar verəndə. Məncə ən böyük üstünlüyü rahatlıqdır. Çünki vaxt itkisi olmur, hər şeyi bir yerdən öyrənə bilirəm. Amma hər şeydə ona güvənmək olmaz. Mən daha çox mövzuların izahını, yazı nümunələrini və məsləhətləri soruşuram. Həm də yeni şeylər öyrənmək üçün yaxşı vasitədir. Ümumilikdə, işləri çox asanlaşdırır”.

Şəhər sakini Elcan Kəlbiyev: ””Chatgpt” həm maraqlı, həm də faydalı bir vasitədir. Çox vaxt gündəlik suallarımı vermək üçün istifadə edirəm. Məsələn, hansısa mövzuda nəsə yazmaq, ya da yeni ideyalar tapmaq istəyəndə kömək edir. Qərarlarımı bəzən dəyişir, çünki elə bir yanaşma göstərir ki, əvvəllər ağlıma gəlməyib. Bununla belə, tamamilə güvənmirəm, çünki səhv etmə ehtimalı var. Mənə ən çox vaxt qənaəti baxımından fayda verir. Uzun-uzadı axtarış etməkdənsə, qısa vaxtda cavab almaq rahatdır. Bəzən zarafatla da sual verirəm, maraqlı

cavabları xoşuma gəlir. Düşünürəm ki, düzgün istifadə olunarsa, çox şey qazandırar”.

Şəhər sakini Bəxtiyar Xəlilli: ”Son illərdə süni intellekt insanların işlərini həm asanlaşdıra, həm də müəyyən hallarda çətinləşdirə bilər. Mən özüm çox istifadə etmirəm, amma ətrafımdakıların danışdıqlarından görürəm ki, öyrənmək və məlumat tapmaq üçün

böyük imkan yaradır. Düzdür, hər şeyə etibar etmək olmaz, bəzən səhv və ya qeyri-dəqiq cavablar da olur. Ona görə də mənim qərarlarımı dəyişmir. Amma gənclər üçün yaxşı vasitədir, çünki vaxt itirmədən cavab tapırlar. Çətinlik tərəfi isə insanları hazır cavablara öyrəşdirməsidir. İnsan özü fikirləşməyə həvəssiz qalır. Mən daha çox öz təcrübəmə güvənirəm. Yəni, mənim üçün süni intellekt o qədər də vacib deyil”.

Şəhər sakini Lalə Məmmədova: ”Gündəlik həyatımda aktiv istifadə etdiyim bir şeydir. Ən çox təhsil, maraqlı faktlar və ya şəxsi inkişafla bağlı suallar verirəm. Mənim üçün faydası ondadır ki, mövzuları daha sadə və aydın şəkildə izah edir. Bəzən verdiyi cavablar məni düşündürür və qərarımı dəyişdirir. Xüsusilə də yeni yanaşmalar öyrənmək çox maraqlıdır. Amma hər cavabını da qəbul etmirəm, çünki səhv ola bilər. Daha çox özümü inkişaf etdirmək və vaxt qazanmaq üçün istifadə edirəm. Çətin tərəfi isə insanı hazır cavablara öyrəşdirməsidir. Düşünürəm ki, balanslı istifadə etsək, çox kömək edər.

Şəhər sakini Məryəm İbrahimova: ”Əsasən təhsil və işlə bağlı mövzularda istifadə edirəm. Çox vaxt esse, layihə və ya təqdimat hazırlayanda köməkçi olur. Mənim qərarlarımı müəyyən qədər dəyişdirdiyi olub, çünki yeni fikirlər öyrədir. Amma tamamilə onun dediklərinə bağlı qalmıram. Bəzən səhv cavablar verdiyini də görmüşəm. Daha çox dəqiq və yaradıcı suallar verməyə çalışıram. Məncə ən böyük üstünlüyü vaxta qə-

naət etməkdir. Çətinlik isə ondan ibarətdir ki, insan çox asan yola öyrəşir və özü düşünmək istəmir. Yenə də ümumilikdə faydalı vasitə hesab edirəm”.

Günel Fərzəliyeva



SORĞU

"Kənd məhsulları" adı altında satılan qidalar nə dərəcədə təhlükəsizdir?

Qida mütəxəssisi mühüm məqamlara aydınlıq gətirdi

Paytaxtda kənd məhsulları adı ilə yol kənarında maşınların baqajında toyuq, yumurta qatıq və süd satılır və mütəmadi olaraq açıq havada qalır. Bu məhsullar insan orqanizmi üçün nə dərəcədə sağlamdır?

Məsələ ilə bağlı qida mütəxəssisi Seymur Qafarov SİA-ya açıqlamasında bildirib ki, bölgələrə səfər etdikdə, xüsusilə istirahət və turizm məqsədilə ölkə daxilində hərəkət edən yerli turistlərin yol boyunca müxtəlif məhsulların satışı ilə qarşılaşması adi haldır: "Yol kənarlarında müvəqqəti qurulmuş köşklərdə, avtomobil baqajlarında və ya sadə stendlərdə tez-tez müxtəlif növ qida məhsulları, o cümlədən vəhşi ov heyvanlarının əti, ev quşları, bal, süd məhsulları, qurudulmuş meyvələr, tərəvəzlər və digər orqanik kənd təsərrüfatı məhsulları təklif olunur. Bu məhsulların görünüşü və "təbii" adı ilə təqdim olunması alıcıların diqqətini cəlb etsə də, onların təhlükəsizliyi ilə bağlı ciddi suallar meydana çıxır.

Əvvəla, bu cür açıq havada, qeyri-rəsmi şəkildə satılan məhsulların mənşəyi çox zaman bilinmir. Həmin məhsulların hansı şəraitdə yetişdirildiyi, saxlandığı, emal olunduğu və nə qədər müddət əvvəl hazırlandığı barədə heç bir məlumat təqdim edilmir. Bu isə həmin məhsulların gigiyenik normalara nə dərəcədə cavab verdiyi ilə bağlı narahatlıqları artırır.

Digər tərəfdən, bu məhsullar heç bir müvafiq laborator analizlərə cəlb olunmadan, sanitar-epidemioloji nəzarətdən keçmədən satışa çıxarılır. Nəticədə, məhsulun üzərində "təbii" və ya "orqanik" yazılması onun təhlükəsiz olduğunu sübut etmir. Əksinə, bəzi hallarda bu cür qeyri-qanuni satışlar qida zəhərlənmələrinə, yoluxucu xəstəliklərin yayılmasına və digər ciddi sağlamlıq problemlərinə səbəb ola bilər.

Bəzi istehlakçılar payız və qış aylarında havaların soyumasını nəzərə alaraq açıq havada satılan məhsulların daha az risk daşıdığını düşünə bilər. Lakin bu, çox təhlükəli bir yanılmadır. Çünki hava şəraitindən asılı olmayaraq, düzgün saxlanılmayan və nəzarətsiz şəraitdə satılan hər hansı məhsulun insan sağlamlığı üçün təhlükə yaratmaq ehtimalı yüksəkdir. Xüsusilə, tez xarab olan süd məhsulları, ət və quş əti kimi məhsullar ciddi risk daşıyır və onların düzgün temperaturda saxlanılması zərərli bakteriyaların yaranmasına səbəb ola bilər.

Bu səbəbdən, istehlakçılar hər zaman diqqətli olmalı, nə yediyini və haradan aldığına xüsusi önəm verməlidirlər. Dövlət qurumları da bu kimi hallara qarşı nəzarəti gücləndirməli, yol kənarında və digər qeyri-qanuni satış nöqtələrində təbii və ya orqanik adı ilə satılan məhsulların yoxlanmasını təmin etməlidirlər. Həmçinin, maarifləndirici tədbirlərlə əhalidə qida təhlükəsizliyi ilə bağlı biliklərin artırılması vacibdir.

Unutmayaq ki, sağlam həyat tərzi yalnız düzgün qidalanmaqla deyil, eyni zamanda təhlükəsiz və nəzarətli mənbədən qidalanmaqla mümkündür. Təbii görünən hər məhsul sağlam deyil, hər orqanik məhsul isə təhlükəsiz deyil. Seçim edərkən yalnız qiymətə və görünüşə deyil, məhsulun mənşəyinə və etibarlılığına da diqqət yetirmək lazımdır".

Arzu Qurbanlı

Azərbaycanda niyə "plitka" şokoladlar istehsal olunmur?

EKSPERT AÇIQLADI

"Azərbaycanda konfet və digər şirniyyat məhsullarının istehsalı ilə məşğul olan bir sıra yerli zavodlar mövcuddur. Bu müəssisələr əsasən karamel, draje, vafli, marmelad və müxtəlif növ konfetlər istehsal edirlər. Yerli bazarda bu məhsulların payı nəzərəçarpacaq dərəcədədir və bəzi brendlər artıq istehlakçılar arasında tanınmış və sevilmiş adlara çevriliblər. Lakin bu sahədə müəyyən boşluqlar da mövcuddur". Bu sözləri SİA-ya açıqlamasında AİB-nin sədri Eyyub Hüseynov deyib.

Onun sözlərinə görə, "plitka" adlandırılan klassik forma şokoladların (qalın, kvadrat formasında olan şokolad lövhələri) istehsalı Azərbaycanda demək olar ki, yox səviyyəsindədir. Bu cür şokoladlar əsasən xarici ölkələrdən, xüsusilə də Rusiya, Türkiyə, Almaniya, Belçika və İsveçrə kimi şokolad istehsalında qabaqcıl ölkələrdən idxal olunur. Bu da yerli bazarda həmin məhsulların qiymətinin yüksək olmasına səbəb olur. Xüsusilə də tərkibində yüksək faizli kakao olan, təbii yağlardan hazırlanan keyfiyyətli şokoladlar baha qiymətə satılır və hər istehlakçının büdcəsinə uyğun olmur.

Əsl şokoladın istehsalı üçün lazım olan əsas xammallar - kakao lobyası, kakao yağı və digər komponentlər - Azərbaycanda yetişmədiyi üçün bu məhsullar idxal olunur. Bu isə şokolad istehsalının maya dəyərini artırır və yerli zavodlar üçün əlavə iqtisadi çətinliklər yaradır. Digər tərəfdən, bu sahədə texnoloji avadanlıqların və ixtisaslı kadrların çatışmazlığı da geniş miqyaslı istehsalın qarşısında maneə kimi dayanır.

Yerli bazarda mövcud potensiala və şokolada olan tələbatın yüksəkliyinə baxmayaraq, "plitka" şokoladların istehsalı hələ də tam olaraq inkişaf etməyib. Bu isə həm sahibkarlar, həm də dövlət qurumları üçün gələcəkdə inkişaf etdirilə biləcək perspektivli bir sahə kimi görünür. Əgər bu sahəyə investisiya qoyuluşları artırılsa, müasir texnologiyalar tətbiq edilsə və xammal təchizatı üzrə davamlı təchizat zənciri qurulsa, Azərbaycanda da keyfiyyətli "plitka" şokoladların istehsalını həyata keçirmək mümkündür. Nəticə etibarilə, yerli şokolad istehsalı hələ ki, əsasən konfet və digər sadə şirniyyat növləri ilə məhdudlaşır. Lakin ölkədə şokolad məhsullarına olan maraq və istehlak səviyyəsi nəzərə alınarsa, bu sahədə irəliləyişlərə nail olmaq mümkündür. Bu həm daxili bazarın təminatı, həm də ixrac potensialının artırılması baxımından mühüm rol oynaya bilər".

Arzu

Lalə Mehralı

Öldürmək dərsi

Jurnalist olmağıma baxmayaraq mən kriminal xəbərləri, zorakılıq haqqında olan məlumatları, intihar hadisələrini oxumuram, qarşıma bununla bağlı informasiya, video çıxanda ötürürəm, baxmıram. Nə qədər cinayət xəbəri, öldürmək, qəsd etmək haqqında informasiya olar! Ötürürsən, yenə çıxır, yenə çıxır.

İnsanlar öldürməyə, qana susayıb. Öz doğmasını öldürmək su içmək qədər asanlaşıb. Onların haqqında yazanda ötəri də yazmırlar, hər detalına qədər mətbuatda yazılır cinayətin motivləri. Bunu uşaq oxuyur, yeniyetmə oxuyur, nəticəsi dəhşətli olur. Uşaqlar internetdən öldürmək dərsi alır sanki, cinayət törətməyin xırdalıqlarını öyrənir o videoların sayəsində.

Bir də görürsən müsahibə çıxır qarşına: "Bir neçə gün əvvəldən evə necə girəcəyimi hesablamışdım, onsuz da qoca arvaddan başqa heç kim olmurdu orada. Həmin gecə pəncərədən girdim içəri, özümlə balta da gətirmişdim, yavaş-yavaş yaxınlaşdım arvada, arxadan bir zərbə vurdum başına balta ilə, sonra gördüm ölmür, birini də vurdum, sonra birini, üstündən birini... Sonra da sürüyüb saldım bax bura, üstünü örtdüm, işimi gördüm, nə lazımdır götürdüm, sonra da çıxıb getdim, çıxanda da yaylığımla qapının, pəncərənin dəstəyini sildim ki, əl izim qalmasın".

Və yaxud da başqa bir sujet xətti: "O qıza çoxdan gözümüz düşmüşdü, güddük iki dostumla, bir gün axşamçağı küçədə tək yaxaladıq, basdıq maşına, apardıq meşəyə, əvvəl paltarlarını çırdıq, sonra da növbə ilə zorladıq, o eləcə qışqırırdı. Sonra özündən getdi, elə bildik ölüb, biz də izi itirmək üçün orda bir quyu qazıb ora basırdıq".

Bu sujetlərdən çox yazmaq olar, hamısı da birbirindən iyrənc. Bunlar istintaq üçün çəkilib elə oradaca qalmalıdır, o arxivdən çıxmamamlıdır, internetdə yayımlanmamalıdır. Əvvəllər cinayət verilişləri vardı, indi bilmirəm yenə yayımlanırmı, gəncliyi məhv elədilər o verilişlərlə. Tamaşaçıya öldürmək dərsi keçirdilər, cinayəti necə törətmək olar ki, kimsə bilməsin, izini necə itirmək olar, cinayətdən sonra necə davranmaq lazımdır ki, heç kim şübhələnməsin və s.

Valideynlərə bu barədə xəbərdarlıq ediləndə, intihar, cinayət xəbəri izləyən övladının təhlükədə olduğunu deyəndə isə reaksiyası belə olur: "Əşi, kimə nə olur ki, buna da ola?" Kimə nə olur? Həbsxanalardakı cinayətkar uşaq və yeniyetmələrin sayı artır. 14-15 yaşında oğlanlar məktəbə getmək əvəzinə narkotik aludəçisi olur, sinif yoldaşını bıçaqlayır. Yeniyetmə öz anasına bıçaq çəkir, bacısını öldürür. Ər öz arvadını öldürmək və izi itirmək barədə xeyli "təcrübə" qazanır.

Narkotik aludəçisinin müsahibəsini, iynə vurmasını, gömgöy damarlarını yayımlamaq təhlükəlidir. Amma gənclər acgözlüklə izləyir o müsahibələri. Onlar narkotikin zərərləri barədə yox, narkomanın "çəkəndə hər şeyi unuduram" cümləsi ilə daha çox maraqlanır. Bir narkomanın narkotiki necə əldə etməsi, bir cinayətkarın cinayəti necə törətməsi ilə bağlı danışdıqları "dəlinin yadına daş salır".

27 sentyabr - Anım Gününün tarixi və milli irsi

Azərbaycan xalqının müasir tarixi qəhrəmanlıq, fədakarlıq və milli iradənin ən uca nümunələri ilə zəngindir. Xalqımızın müstəqilliyinin qorunması və ərazi bütövlüyümüzün bərpası uğrunda apardığı mübarizənin zirvə nöqtəsi 2020-ci ilin 27 sentyabrında başlanan və 44 gün davam edən Vətən müharibəsi olmuşdur. Bu müharibə nəticəsində Azərbaycan torpaqlarının uzun illər işğal altında qalmış hissəsi azad edilmiş, xalqımız milli qürurunu, tarixi ədaləti və suverenliyini bərpa etmişdir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sözləri ilə desək: "Biz bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimizlə qürur duyuruq. Onların qəhrəmanlığı, şücaəti, fədakarlığı artıq dastana çevrilmişdir." Bu fikirlər bir daha göstərir ki, 27 sentyabr - Anım Günü sadəcə bir tarix deyil, milli yaddaşımızın, şəhidlərimizin müqəddəs xatirəsinin və gələcək nəsillərə ötürüləcək əbədi mirasın rəmzidir. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır. Ermənistanın əsassız ərazi iddiaları, ifrat millətçi ideologiyası və beynəlxalq təşkilatların ikili standartlara əsaslanan siyasəti 30 ilə yaxın bir müddətdə problemin sülh yolu ilə həllini mümkünsüz etmişdir.

Tarixi faktlar: XX əsrin əvvəllərində erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı törətdiyi qətliamlar, 1948-1956-cı illərdə və 1988-ci ildən etibarən həyata keçirilən deportasiyalar, nəticədə isə 300 min soydaşımızın öz ata-baba yurdlarından didərgin salınması xalqımızın yaddaşına silinməz faciələr kimi həkk olunmuşdur.

Xocalı Soyqırımı: 1992-ci ilin 26 fevralında törədilmiş Xocalı faciəsi erməni vandalizminin ən dəhşətli nümunəsidir. 613 nəfərin vəhşicəsinə qətlə yetirilməsi, uşaqların, qadınların və qocaların öldürülməsi beynəlxalq hüququn bütün normalarına zidd olaraq insanlığa qarşı cinayət idi.

Siyasi nəticəsizlik: ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi və BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin icra olunmaması Ermənistanın işğalçılıq siyasətini daha da cəsarətləndirmişdir.

Bu səbəblərdən 2020-ci ilin sentyabrında Ermənistan ordusunun növbəti təxribatına cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə əks-hücuma başlamış və 44 günlük Vətən müharibəsində möhtəşəm Zəfər qazanmışdır. Azərbaycan Ordusunun gücü, xalqın birliyi və rəhbərliyin qətiyyəti nəticəsində qısa müddətdə tarixi ədalət bərpa edildi.

Azad olunmuş torpaqlar: 5 şəhər, 4 qəsəbə və 286 kənd, o cümlədən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Azərbaycanın mədəniyyət paytaxtı Şuşa işğaldan azad olundu.

Siyasi mərhələ: 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanat nəticəsində Ağdam, Kəlbəcər və Laçın rayonları da döyüşsüz şəkildə Azərbaycana qaytarıldı.

Milli həmrəylik: Müharibə dövründə bütün xalq "Öldü var, döndü yoxdur" şüarı ilə ordunun arxasında birləşdi, cəbhə ilə arxa cəbhə arasında sarsılmaz həmrəylik yarandı.

Bu Qələbə Azərbaycan tarixində yeni bir mərhələ açdı. Azərbaycan artıq regionda qalib dövlət, xalqımız isə müzəffər xalq kimi tanındı. Prezident cənab İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən hər il sentyabrın 27-si Anım Günü kimi qeyd edilir. Bu gün Vətən uğrunda canından keçmiş bütün qəhrəmanların müqəddəs xatirəsinə xalqımızın dərin ehtiramının ifadəsidir.

Şəhidlərimizin canı və qanı bahasına əldə olunmuş Qələbə yalnız bu günün deyil, gələcək nəsillərin də məsuliyyətidir. Azad edilmiş torpaqlarımızda həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri onların əziz xatirəsinə ucaldılan canlı abidədir. Bakıda inşa olunan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyi, həmçinin Zəfər parkı xalqımızın qəhrəmanlığını və şəhidlərin ölməzliyini təcəssüm etdirir. "YAŞAT" Fondu vasitəsilə şəhid ailələri və qazilər hər zaman dövlətin diqqət mərkəzində saxlanılır. Onların sosial təminatı, sağlamlığının bərpası və həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür.

27 sentyabr - Anım Günü yalnız kədər günü deyil, həm də milli qürur, Vətən sevgisi və şəhidlərimizin müqəddəs xatirəsinə sədaqət günüdür. Bu gün Azərbaycan xalqının qəhrəmanlıq tarixinə yazılmış ən şanlı səhifələrdən birini xatırladır.

Şəhidlərin qanı bahasına bərpa edilmiş torpaqlarımızda dalğalanan üçrəngli bayraq xalqımızın milli iradəsinin, birliyinin və əzminin simvoludur. Azərbaycan bu gün qalib xalqdır və bu qələbənin qorunması, əbədiləşdirilməsi hər birimizin vəzifəsidir. Şəhidlərin ruhu qarşısında borcumuz onların bizə miras qoyduğu azad və güclü Vətəni daim inkişaf etdirmək, gələcək nəsillərə qürurla ötürməkdir.

Füzuli HƏSƏNOV,
Milli Qəhrəmanları Tanıtma İctimai Birliyinin Binəqədi rayon şöbəsinin sədri, I qrup Qarabağ qazisi

Avropa Dilləri Gününə...

MƏTANƏT

26 sentyabr - Avropa Dilləri Günüdür. Günün məqsədi hər kəsi ikinci və ya üçüncü dil öyrənməyə təşviq etmək, həmçinin bir neçə dilbilmənin mədəniyyətlərarası anlayışı artırdığını aşılamaqdır.

Avropada 225 yerli dil var və onların üçdə ikisi təhlükə altındadır. Qitədə ən çox yayılmış dillər - rus, alman, türk, ingilis, fransız, italyan dilləridir.

Kim istəməz ki, öz ana dilindən başqa bir neçə xarici dil də bilsin. Hər kəs istəyər. Elə ölkəmizdə də bütün orta və ali məktəblərdə şagird və tələbələrə xarici dillər öyrədilir. Bu da çox əla.

Lakin düşünürəm ki, hər kəs ən birinci öz ana dilini mükəmməl bilməli, onun qanunauyğunluqlarına riayət etməli, bundan sonra yeni bir dil öyrənməlidir. Çox təəssüf ki, bu gün gənclər arasında elələri var ki, Avropa dillərini ana dilindən gözəl bilir və onun qayda-qanununa ana dilindən çox riayət edir.

Ana dilimizin bugünkü vəziyyəti heç də ürəkaçan deyil. Dilimiz təhlükə qarşısındadır. Kim nə istəyirsə, onu bu dilin üzərində sınaqdan keçirir. Lüğətlər tez-tez dəyişilir, qrammatikanın başına gündə bir oyun açılır, başbilənlər var ki, sanki yarışa giriblər, bu söz belə deyil, belə yazılır, sən düz bilmirsən, mən bilirəm. Təəssüf doğuran hal isə odur ki, hər kəs öz bildiyini dərsliklərə də tətbiq edir və nəticədə dilimizə zərbə-zərbə arxasınca dəyir.

Bu gün sosial şəbəkələrdə ana dilimizə sitəm edən gənclərlə tez-tez rastlaşırıq. Yazışmalarında sözləri ixtisar edən, "salam"ı "slm", "təşəkkür"ü "twk", "universitet"i "uni", edən, hələ bu bir yana, Azərbaycan dilində sözləri ingilis əlifbası ilə yazan, məsələn, "Şəhla"nı "Shahla", "sou"nu "show", "şəhər"i "sher", "baş"ı "baw", qarışıb"ı qarwb", "axşam"ı "axwam" kimi ifadə edirlər.

Dərd tək bu olsa, deyərsən, yarıdır. Bəzi müasir gənclərimiz insan, şəhər, kənd, yazıçı, müəllimlərinin adlarını kiçik hərflə yazırlar. Demirəm ki, bunların böyük hərflə yazıldığını bilmirlər, bilənlər var, lakin yazı qabiliyyəti itib onlarda.

"Ə" hərfimiz gedib, yerinə "e" gəlib. Görəsən səbəb nədir? Səbəblərdən əsas birini məktəblərdə inşa, imla, ifadə yazılarının azalmasında görmək olar. Bu, uşaqların yazı qabiliyyətini itirməsidir. Digər səbəblər isə məsuliyyətsizlik, tələskənlik, hörmətsizlikdir. Həm özünə, həm də qarşıdakına...

Bəzən düşünürəm ki, bir günlük bu telefonlar yığışdırılsa və yaxud internet dayansa, bu yeniyetmə-gənclərimiz görəsən əllərinə qələm alıb bir normal məktub yaza bilərlər? Heç inana bilmirəm. Yazarlar, lakin onu bizlər oxuya bilmərik. Hərfləyə-hərfləyə qalarıq, deyərik, Allah, görəsən bunlar nə demək istəyib. Necə ki, hazırda həmin o gənclərin yazdıqları məktubları anlamaqda çətinlik çəkirik.

Hələ bunları da qoyaq bir kənara. Bu dilin günahı nədir? Zamanla rus dilini, sonra türk dilini qatmışıq dilimizə, indi də yarı rus, yarı türk, ingilisin də əlifbasından hərflər qatıb qarışıq bir dil düzəltmişik.

Küçədə, ictimai nəqliyyatda elə hey həm gənclərin, həm də orta yaşlı insanların türk sözlərindən istifadəsini görürsən. Adama bəzən elə gəlir ki, Azərbaycanda deyil, Türkiyədə yaşayır. Hətta buna televiziya və radio kanallarımızda aparıcıların, qonaqların danışığında da rast gəlirsən və düşünə-düşünə qalırsan ki, təbliğat-təşviqat mərkəzi olan televiziya və radioda da ana dilinə yamaq vurarlar?..

Yaxşı, bəs bu qayda, dilə bu cür yanaşma ilə hara gedirik? Nə vaxta qədər olacaq bu yolçuluq? Bizə bu yolda bir "dayan, düşün, nə edirsən",- deyən olacaqmı? Olur, bəzən çox olur, lakin qulaqlar karlaşıb ta. Kim nə bilir, onu da edir.

Di gəl, rus və ingilis dilinə verdiyimiz üstünlüyə bax. Bu dilləri öyrənmək üçün hazırlıqlara, kurslara getməyimizdən danışaq. Haqsız da deyilik. Çünki bu dillərdən birini bilməyənə indiki dövrdə lazımi yer yoxdur. Hətta bu dillərdən biri ali məktəblərə, hətta magistraturaya qəbul imtahanlarına da salınıb. Bilmirsənsə, ali təhsil müəssisəsinə daxil ola bilmir, kənarda qalırsan, ha ana dilini gözəl bil.

Bilək, öyrənək, dil bilməyin nəyi pisdir ki, lakin o halda öyrənək ki, ana dilini mükəmməl bildikdən, ona sayğı, ilə yanaşdıqdan sonra.

Avropa Dilləri Günündə ana dilimizlə bağlı düşüncələrə dalmaya bilmədim. Çünki bu, bizim yaralı yerimizdir. Bu yaraların artıq üstü açılıb, qan süzür. Ona məlhəm qoyub bağlamağa, sağaltmağa çalışaq.

Dəyişən mövqelər

Trampın Ukrayna ilə bağlı ritorikası niyə dəyişdi?

Avropa rəsmiləri ABŞ prezidenti Donald Trampın Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində öz ərazilərinə nəzarəti bərpa etmək şansının olması barədə bəyanatına müxtəlif reaksiyalar verib. Donald Trampın Ukraynanın döyüş meydanında uğur qazanma şansları ilə bağlı daha əlverişli bəyanatları beynəlxalq aləmdə aktiv şəkildə müzakirə olunur. "The Wall Street Journal"-da dərc olunan hesabata görə, bu ritorika Rusiyanın cəbhə xəttində məhdud qazanc əldə etməsi, həmçinin Trampın müşavirləri və Vladimir Zelenskinin təkidi ilə təkan verib.

WSJ-nin məlumatına görə, Tramp son günlər Zelenski ilə görüşünə hazırlaşır, administrasiyasında uzun müddətdir Rusiyaya qarşı daha sərt mövqe nümayiş etdirən rəsmilərlə əlaqə saxlayır. Hesabatda onların arasında ABŞ-ın xüsusi elçisi Keyt Kelloq və BMT-dəki yeni səfir Mayk Uolsun adı çəkilir. O, Trampa son illərdə "Rusiyanın döyüş meydanında az irəliləyiş əldə etdiyini" söyləyib. Mənbələr "The Wall Street Journal"-a bildiriblər ki, Amerika prezidenti həmçinin Ukraynanın "ABŞ kəşfiyyatının dəstəyini tələb edəcək" hücum planlaşdırdığını öyrənib.

WSJ mənbələri həmçinin Trampın ritorikasını dəyişməsinin amilləri kimi mübahisəli Ağ Ev görüşündən sonra Zelenskinin hərəkətlərini, xüsusən də ABŞ-ın atəşkəs tələbini qəbul etməsini və səylərinə görə Amerika prezidentinə ictimai minnətdarlığını göstərib. Bu mənbələr əlavə edib ki, ritorikanın dəyişməsinə baxmayaraq, Tramp hələ də Ukrayna ilə bağlı siyasətini dəyişməyib və silah satışına icazə verməyə davam edərkən, "suveren Rusiya ərazisinə hücumlar üçün Amerika silahlarından istifadəni məhdudlaşdırır".

Aİ-nin reaksiyası

Avropa rəsmiləri Trampın Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində öz ərazisinə nəzarəti bərpa etmək şansının olması ilə bağlı bəyanatına müxtəlif reaksiyalar verib: "Politico" yazır ki, bəziləri Ağ Ev liderinin sözlərini alqışlayıblar, baxmayaraq ki, skeptisizm qalmaqdadır. Nəşr Trampın Avropanın BMT-dəki nümayəndə heyəti arasında Truth Social-da verdiyi açıqlamaya ilkin reaksiyanı "təmkinli həzz" kimi xarakterizə edir. Aİ rəsmilərindən biri Nyu-Yorkda Trampın mövqeyində ukraynayönlü dəyişikliyə toxunaraq, "Bu, indiyə qədər gördüyümüz ən sərt addımdır" deyib.

Trampı Putinin müharibəyə görə tam məsuliyyət daşıdığına inandırmağa aylarla vaxt sərf edən avropalılar üçün Trampın açıq-aşkar mövqe dəyişikliyi həm də onların öz səylərinə bəraət qazandıran bir növ oldu. İlkin təəccüb və sevinc fonunda bir neçə Aİ rəsmisi və diplomatı Trampın postunun Kremlin sahibi Vladimir Putini qəzəbləndirmək cəhdindən başqa bir şey ola bilməyəcəyinə və ABŞ siyasətində heç bir real dəyişikliyə gətirib çıxarmayacağına dərin şübhələrini bildirdilər.

Yeni baxış

Fransa prezidenti Emmanuel Makron Trampın Ukraynanın öz ərazisinə nəzarəti bərpa etmək şansının olması barədə bəyanatını "vacib hadisə" adlandırıb, çünki Kiyevin "Amerika avadanlığına və dəstəyinə ehtiyacı var. Bu, Amerika prezidentinin çox açıq siqnalıdır ki, Rusiya şübhəsiz ki, çoxlarının inandığından daha zəif və həssasdır", - Fransa prezidenti izah edib. O, ABŞ-ın Ukrayna ilə bağlı "yeni baxışını" alqışlayıb. Makron əmindir ki, bu, "bizə daha çox müqavimət göstərməyə və hətta ərazini geri almağa imkan verəcək".

Onun fikrincə, ABŞ "Ukrayna ordusunun müqavimət göstərmək qabiliyyətini" və "daha çox şey etmək üçün kollektiv imkanları" qeyd edir. Avropa Birliyinin diplomatiya rəhbəri Kaja Kallas qeyd edib ki, Aİ Trampın son açıqlamalarından razıdır. "Bütün bunlar doğrudur. Biz Rusiyadan enerji almağı dayandırmalıyıq. Bəli, Ukrayna bu müharibədə qalib gəlməlidir ", - Aİ-nin baş diplomatı bildirib.

O, Trampın bəyanatını "çox güclü" adlandırıb və əlavə edib ki, onlar əvvəllər ABŞ-ın vəzifədə olan prezidentlərindən belə bəyanatlar eşitməyiblər. "Ona görə də yaxşı haldır ki, bizim indi ümumi anlaşmamız var... Artıq dediyim kimi, daha çox qlobal tərəfdaşlar bu müharibəni dayandırmaq üçün Rusiyaya təzyiq göstərməlidirlər, çünki onların gərginləşdiyi və sülh istəmədikləri aydındır. Ona görə də qrup olaraq bu istiqamətdə edə biləcəyimiz hər şey gözəl olardı", - Kallas qeyd edib.

Başqırdıstandan Tuapseyə qədər

Sentyabrın 24-də Rusiyanın təqribən yeddi subyekti Ukrayna pilotsuz təyyarələrinin kütləvi hücumuna məruz qalıb. Başqırdıstanda "Qazprom" neft emalı zavoduna, Volqoqrad vilayətindəki nasos stansiyalarına və Belqorod vilayətində dron istehsalı sahəsinə zərbələr endirilməsi barədə məlumatlar var. Axşam saatlarında Ukrayna pilotsuz təyyarələri Novorossiysk və Tuapse dəniz infrastrukturuna zərbələr endirib.

Başqırdıstan

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı Başqırdıstanda "Qazprom Naftokhim-Salavat" neft emalı zavoduna zərbə endirdiyini təsdiqləyib. Komandanlığın məlumatına görə, bu hücum düşmən ordusunun hücum imkanlarını azaltmaq və işğalçı qüvvələrin yanacaq təchizatını çətinləşdirmək məqsədilə həyata keçirilib. Hərbçilər qeyd edirlər ki, bu zavod ildə 10 milyon tona qədər neft emal edir və Rusiyada maye raket yanacağının əsas istehsalçısıdır.

Daha sonra yerli KİV Ukrayna Təhlükəsizlik Xidmətindəki məlumatlı mənbələrə istinadən xəbər verib ki, Başqırdıstanda hücum bir həftə ərzində ikinci dəfə Ukrayna silahlı qüvvələri tərəfindən təşkil edilib və həyata keçirilib. Agentlik həmçinin təsdiqləyib ki, "Qazprom Naftokhim-Salavat" Rusiyanın ən böyük neft emalı və neft-kimya zavodlarından biridir. Burada avtomobil benzini, dizel yanacağı, mazut, bitum, polietilen kimi 150 adda məhsul istehsal olunur. Ukrayna ərazisindən hədəfə qədər olan məsafə təxminən 1400 kilometrdir. Pilotsuz təyyarələrinin bir neçə zərbəsi nəticəsində zavodun ərazisində yanğın baş verib. İlkin olaraq xam neft emalı qurğusu zədələnib.

Volqoqrad və Belqorod bölgələri

Baş Qərargah həmçinin bildirib ki, Müdafiə Qüvvələri Volqoqrad vilayətində Rusiya qoşunlarının təchizatı ilə məşğul olan mühüm obyektlərə zərbələr endirib: təcavüzkar ölkənin cənub rayonlarına xam neft nəqli sisteminin bir hissəsi olan Kuzmiçi-1 nasos stansiyasını alov bürünüb, Kuybışev-Tixoretsk magistral neft kəməri ilə neft nəql edən Zenzevatka nasos stansiyası zədələnib.

Bundan başqa, sentyabrın 24-nə keçən gecə Müdafiə Qüvvələri pilotsuz uçuş aparatlarının istehsalını dayandırmaq və Rusiyanın döyüş qabiliyyətini azaltmaq məqsədi ilə Belqorod vilayətinin Valuyki şəhərindəki pilotsuz uçuş aparatlarının istehsalı müəssisəsinə zərbələr endirib, burada vurulan və atəş açılıb. "Nəticələr və dəymiş ziyanın miqyası müəyyənləşdirilir", - komandanlıqdan bildirilib.

Novorossiysk

Sentyabrın 24-də günortadan sonra Rusiya KİV-ləri Rusiyanın Novorossiysk liman şəhərinə təyyarə tipli pilotsuz uçuş aparatları və dəniz pilotsuz təyyarələrinin hücumu barədə məlumat yayıb. Qara dəniz sahilində yerləşən bu şəhər Ukraynanın işğal olunmuş Krıma dəfələrlə endirdiyi zərbələrdən sonra Rusiya Qara Dəniz Donanmasının əsas bazasına çevrilib. Krasnodardakı mənbələr bildirib ki, hücum limandan təxminən iki kilometr aralıda yerləşən Novorossiysk mehmanxanasına, eləcə də ən azı beş qonşu binaya ziyan vurub.

Daha sonra Xəzər Boru Kəməri Konsorsiumu şəhərdəki ofisinə ziyan dəydiyini təsdiqləyib. Rusiya, Qazaxıstan və xarici enerji şirkətlərindən ibarət bu beynəlxalq müəssisə qərbi Qazaxıstan yataqlarını Novorossiysk dəniz terminalı ilə birləşdirən böyük neft kəmərini idarə edir.

Rusiya hakimiyyətinin məlumatına görə, azı 3 nəfər ölüb, 11 nəfər yaralanıb. "Pilotsuz təyyarələr gündüz vaxtı şəhərin mərkəzinə zərbələr endirib, itkilər var. Bütün xidmətlər yüksək hazırlıq vəziyyətindədir və mən vəziyyətlə bağlı dərhal məlumat alıram. Hücum şəhərin mərkəzi hissəsində, "Novorossiysk" otelinin yaxınlığında olub", - qubernator şərh edib.

Tuapse

Axşam saatlarında Rusiya səlahiyyətliləri yeni hücum barədə məlumat veriblər: Novorossiyskə neftin tankerlərə daşınması üçün Rusiyanın ən böyük terminallarından biri olan Tuapse limanı da vurulub. Qara dənizdə pilotsuz qayıqlar aşkar edilib! Tuapse rayonunun sakinləri və qonaqlarından xahiş olunur ki, sahilyanı ərazini tərk etsinlər. Bu arada sosial mediada Tuapsedə çəkildiyi iddia edilən video yayılıb. O, avtomatik atəş və partlayışları, eləcə də su üzərində manevr edə bilən obyektləri vurmaq cəhdlərini göstərir. Tuapse sakinləri rabitənin kəsilməsi barədə məlumat verirlər.

Hakimiyyət orqanlarının sahilyanı ərazini tərk etməyə və çəkilişdən çəkinməyə çağırışlarına baxmayaraq, videogörüntülərdə tamaşaçıların limandakı "döyüşü" telefonları ilə lentə aldıqları görünür. Tuapse hücumu fonunda, 60 km cənubda yerləşən Soçidə səlahiyyətlilər çimərliklərdən istirahət edənlərin təxliyyə edildiyini elan etdilər.

Putin səhv etdi

Rusiya daha bir düşmənçilik dalğasını artırdı - Rusiya pilotsuz təyyarələri Skandinaviya ölkələrinə göndərildi. Bu təcavüzkar Rusiya nəyə nail olmağa çalışır? Bəs ruslar niyə bu qədər həyasızlaşıblar? Sentyabrın 22-də Danimarkanın ən böyük hava limanı olan Kastrup hava limanı (Kopenhagenin mərkəzindən 8 km aralı) bir neçə naməlum pilotsuz təyyarənin peyda olması səbəbindən uçuşları dörd saatlıq dayandırıb. Hava limanının səlahiyyətlilərinə görə, dronlar mövcud olan tipdən daha böyük idi.

Danimarkanın dövlət kanalı TV2-nin məlumatına görə, sanksiyaya məruz qalan Rusiyanın "Astrol-1" yük gəmisi və Benin bayrağı altında üzən "Puşra" tankeri pilotsuz təyyarələri Kopenhagen istiqamətində buraxmaqda şübhəli bilinir. Pilotsuz təyyarələr havada olarkən Kopenhagen hava limanından 7 km aralıda olan Norveçin "Oslla Carrier 3" yük gəmisi də şübhəli bilinib. Gəminin heyəti rusdur və sahibi Kaliningradda ofislərini saxlayır.

Danimarkanın baş naziri Mette Frederiksen TV2 telekanalına müsahibəsində Kopenhagen hava limanında naməlum dronların görünməsinin ölkənin kritik infrastrukturuna tarixində ən ciddi hücum olduğunu bildirib. "Rusiyadan şübhələnirsinizmi" sualına Frederiksen "Hər halda, onun Rusiya olduğunu inkar edə bilmərəm" deyə cavab verib.

Bununla belə, Kreml Polşa və Rumıniya üzərində pilotsuz uçuş aparatları, eləcə də bu yaxınlarda Estoniyanın hava məkanını pozan hərbi təyyarələri ilə olduğu kimi dərhal "onlar orada deyillər" taktikasına keçib. "Hər dəfə əsassız ittihamlar irəli sürdükdə, açığı, bu, ona gətirib çıxarır ki, bundan sonra belə bəyanatlar artıq nəzərə alınmır... Bəlkə də ciddi mövqe tutan ölkə bu cür əsassız ittihamları daim səsləndirməməlidir", - Kremlin sözçüsü Dmitri Peskov bildirib.

Bu arada, həmin gün Norveçin paytaxtı Oslodakı Gardermoen hava limanı üzərində başqa bir naməlum pilotsuz təyyarə aşkarlanıb və hava məkanı bağlanıb. Bu arada Norveç səlahiyyətliləri çərşənbə axşamı, sentyabrın 23-də bildiriblər ki, Rusiya təyyarələri 2025-ci ildə ölkənin hava məkanını üç dəfə pozub. Bununla belə, Norveçdə baş verən hadisələr yer və müddət baxımından Estoniya, Polşa və Rumıniya ilə müqayisədə daha az ciddidir. Bununla belə, bu, hələ də ciddidir, Norveçin baş naziri Jonas Gahr St?re Norveç hökumətinin saytında dərc olunan bəyanatda bildirib. Həmin gün İsveçin SVT qəzeti Danimarka və İsveç arasında dəniz üzərində bir pilotsuz təyyarənin də müşahidə edildiyini və Stokholm üzərində hava hədəfinin mümkün aşkarlanması ilə bağlı təsdiqlənməmiş məlumatların ortaya çıxdığını bildirib.

Addım-addım gərginliyə

Putinin Trampı açıq-aşkar "üstün etdiyi" Alyaskadan sonra Kremlin sahibi o qədər cəsarətlənib ki, müharibəni gücləndirmək qərarına gəlib. "Hər dəfə Moskvadan başqa bəyanat eşidəndə, ya da Rusiya rəhbərliyinin Ukraynaya və ya Avropa ölkələrinə qarşı növbəti təxribatını görəndə deyirik ki, bu, başqa bir tarixi gündür. Yadınızda saxlayın ki, Rusiya pilotsuz təyyarələrinin Polşaya hücumu tarixi bir gün olacağını deyirdilər. İndi, deyəsən, o tarix Varşavanın özündə də, Rusiya təyyarələrinin Estoniyaya hücumu, Rusiya təyyarələrinin yeni təxribatları, o cümlədən Rusiya Respublikasında enerji obyektləri ilə bağlı yeni təxribatları fonunda xatırlanmır. Və tamamilə aydın olur ki, belə tarixi günlər olmayacaq, daha çox təxribatların və eskalasiyanın davam edəcəyi günlər olacaq", Portnikov özünün YouTube kanalında proqnozlaşdırıb.

O, həmçinin qeyd edib ki, Putinin bu yaxınlarda Qərbi ilk dəfə "hərbi-texniki vasitələrlə" hədələməyə başladığı gün həqiqətən tarixi gün sayıla bilər, çünki Rusiya siyasi rəhbərliyinin Ukraynaya işğalı ərəfəsində məhz bu ritorikadan istifadə edirdi. Yəni Ukraynadakı müharibə Avropada qlobal müharibəyə çevrilə bilər. ABŞ prezidentinin özü də yəqin nəhayət ki, bunu başa düşüb, BMT-də bəyan edib ki, Rusiyadan maye qaz və neft məhsullarını almağa davam etməklə "Avropa özünə qarşı müharibəni maliyyələşdirir".

Vur, vur, vur, vur

Amma görünür, Kremlin sürəti azaltmaq niyyəti yoxdur. Ona görə də bu rus çılğınlığına sonrakı cavab uyğun olmalıdır. Vurun, vurun, təyyarələri vurun, gəmiləri batırın, Kaliniqradı mühasirəyə alın. Ciddi cavab olmasa, Avropa və NATO heç nə etməyə davam etsə, hamısı faciə ilə bitəcək. Yaxşı, nəsə düşəcək, kimsə raket atacaq, bəzi pilotsuz təyyarələr konkret hədəflərə uçacaq.

Ukrayna Müdafiə Qüvvələrinin isə rusları ağllandırmaq üçün öz təsirli üsulları var. Birincisi, bu yaxınlarda Moskvaya "yaxşı dronların" endirdiyi zərbələri xatırlatmaq yerinə düşər. Lakin Ukraynanın digər diplomatik zərbələri də təcavüzkarı ayağa qaldıra bilər. Putin Avropanı "Ukraynaya dəstək verməyin dəyməz" olduğuna inandırmaq üçün pilotsuz təyyarələrdən və "naməlum hücum təyyarələrindən" istifadə etdiyi halda, Ukrayna silahlı qüvvələri Putini bizim təslim olmağımızın saymağa dəyməz olduğuna inandırmaq üçün uzun mənzilli dronlardan istifadə edir. Və onlar düşmənin neft sənayesini metodik şəkildə məhv edirlər. Son məlumatlara görə, "SBU-nun Mərkəzi Təhlükəsizlik Xidmətinin (CSSA) pilotsuz təyyarələri son 7 gündə ikinci dəfə Başqırdıstana çatıb və "Qazprom Neftekhim-Salavat"ı vurub. Bu, avtomobil benzini, dizel yanacağı, mazut, bitum və polietilen daxil olmaqla 150 müxtəlif məhsul istehsal edən Rusiyanın ən böyük neft emalı və neft-kimya zavodlarından biridir. Ukrayna Ordusunun "qızğın salam"ı 1400 km məsafədən görünür: nəhəng qara tüstü sütunu "Ukrayna pilotsuz təyyarələrinin burada olduğunu" açıq şəkildə göstərir. Yerli hakimiyyət yazır ki, hazırda Ukrayna Ordusu müharibəni maliyyələşdirən obyektlərə hədəfli zərbələr endirməkdə davam edir.

Hazırkı qiymətlər necədir?

Neftin qiyməti hər gün dəyişir. Əhəmiyyətli amillərin birləşməsindən təsirlənir. Xüsusən də geosiyasi vəziyyətdən asılıdır. Kanal 24 Trading Economics-in məlumatlarına istinadən xəbər verir ki, neftin bir barelinin qiyməti, digər məsələlərlə yanaşı, istehsalçıdan asılıdır. Rusiyanın Urals markalı neftinin qiyməti hazırda 62,51 dollar/barelə bərabərdir. Bloomberg xəbər verir ki, bu gün neftin qiyməti bir həftə ərzində ən çox bahalaşıb. Vəziyyətə Rusiya dizel ixracının azalması və Trampın Rusiyaya təzyiqinin artması təsir edib. Konkret olaraq Amerika prezidenti deyib ki, NATO ölkələri onların hava məkanını pozan Rusiya təyyarələrini vurmalıdır. Tramp Rusiya neftinin əsas alıcılarını da müəyyən edib.

Çin və Hindistanın davam edən müharibənin əsas sponsorları olduğunu, Rusiya neftini almağa davam etdiyini söyləyib. Bu səbəbdən investorlar Rusiyadan enerji tədarükü üçün riskləri ölçməyə çalışırlar.

Ukrayna və müttəfiqləri neftin qiyməti ilə bağlı nə edir?

Bütövlükdə bu il Rusiyanın neft və qaz gəlirləri azalıb. 2025-ci ilin avqustunda onlar keçən ilin eyni dövrü ilə müqayisədə 35% az olub. Aİ və Ukrayna Rusiyanın neft və qaz gəlirlərinin azalmağa davam etməsi üçün çalışır. Bu məqsədlə Rusiya neftinin yeni maksimum qiyməti 2025-ci il sentyabrın 3-də tətbiq edilib: əvvəlki 60 dolları əvəz edərək, 47,6 dollar/barel. Bu qərarı Aİ-nin Rusiyaya qarşı 18-ci sanksiyalar paketi kontekstində Ukrayna Prezident Aparatının rəhbəri Andriy Yermak bildirib.

Aİ-yə görə, gələcək qiymət həddinin avto-

matik və dinamik tənzimlənməsi mexanizmi tətbiq edilir ki, bu da əvvəlki hesabat dövrü üçün Rusiyanın Urals neftinin orta bazar qiymətindən təxminən 15% aşağı qalacağı gözlənilir. Müttəfiqlərin koalisiyası həmçinin qiymət həddi azaldılmasını elan etdi: Böyük Britaniya hökuməti onu bir barel üçün 47,6 dollara endirmək qərarına gəlib və Kanada da təşəbbüsə qoşularaq onu bir barel üçün 47,6 dollara təyin edib.

Bu addımlar enerji bazarını sabitləşdirmək və Rusiya neftinin ixracına maliyyə təsirini azaltmaq məqsədi daşıyır. Yeni limitin qiymət şəffaflığını artıracağı və Rusiyaya qarşı sanksiyalar siyasətində beynəlxalq koordinasiyanı gücləndirəcəyi gözlənilir. Ekspertlərin fikrincə, 47,6 dollar/barel həddi Rusiyanın neft tədarükündən əldə etdiyi gəliri azaltmalı, eyni zamanda idxalçı ölkələrə uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini qoruyub saxlamağa imkan verməlidir.

Bundan əlavə, Aİ-nin Rusiyaya qarşı yeni "Paket 19" sanksiyaları üçüncü ölkələrin neft şirkətlərinə yönəlib. Bu, təxminən on Çin və bir neçə Hindistan şirkətinə təsir edəcək, çünki Brüssel Kremlin neft dollarlarına çıxışını kəsməyə çalışır. İndi masada yeni sanksiya paketi var. Üzv dövlətlər razılaşmalıdır, lakin biz daha sürətli hərəkət etməliyik, çünki hər bir ödəniş Putinin döyüş büdcəsini doldurur", - Avropa Komissiyasının sədri Ursula fon der Leyen Rusiyanın enerji ixracına dair Paket 19 məhdudiyyətlərinə toxunaraq vurğulayıb. Rusiyanın neft gəlirlərinin azalması həm də Ukraynanın Rusiya neft sənayesinə, o cümlədən neft boru kəmərlərindəki nasos stansiyalarına və neft emalı zavodlarına hücumları ilə bağlıdır. Bloomberg qeyd edib ki, Kiyev son bir ayda Rusiyanın yanacaq infrastrukturuna hücumları gücləndirib. Ukrayna qüvvələri demək olar ki, hər gün Rusiyanın neft emalı zavodlarına zərbələr endirir. Rusiyanın yanacaq istehsalında itkiləri on milyonlarla ton təşkil edir.

Neft-qaz gəlirləri və müharibə

Rusiyanın neft və qaz gəlirləri işğalçı ölkənin büdcəsinin əsas hissəsini təşkil edir, ona görə də onlara vurulan zərbə onun Ukraynaya qarşı müharibə aparmaq qabiliyyətinə zərbədir. "Forbes" artıq Ukraynanın Rusiya neft emalı zavodlarına endirilən zərbələrə görə Rusiya ilə danışıqlarda güclü sövdələşmələr əldə etdiyini bildirib. "Ukrayna silahlı qüvvələri Rusiyanın neft emalı zavodlarına hücumların intensivliyini artırır. Bu, qarşıdan gələn sülh danışıqları zamanı tərəflərin mövqelərinə ciddi təsir göstərə bilər", - amerikalı analitik Vikram Mittal Forbes üçün şərhində bildirib.

Ekspert xatırladıb ki, hələ ilin əvvəlində Kiyev və Moskva arasında danışıqlara dair müzakirələr dalana dirənib. Bəzi siyasətçilər, o cümlədən ABŞ prezidenti Donald Tramp açıq şəkildə bəyan ediblər ki, Ukraynanın Rusiya ilə danışıqlarda "kozırları" yoxdur. Bununla belə, Rusiya neft emalı zavodlarına bir sıra uğurlu dron hücumları vəziyyəti kökündən dəyişib. Bu zərbələr sayəsində Rusiya müharibəsi üçün əsas maliyyə mənbələrindən biri əhəmiyyətli dərəcədə azalıb. Hesablamalara görə, bu hücumlar təkcə avqust ayında Rusiyanın neft emalı gücünün təxminən 17%-ni dayandırmağa məcbur edib. Təcavüzkar ölkənin enerji infrastrukturuna hücumlar bütün sentyabr ayı ərzində davam edib. Bu, artıq Rusiyada benzin çatışmazlığı və qiymətlərin artması ilə yanacaq böhranına səbəb olub.

Bratçuk qeyd edib ki, neft emalı zavodlarına tətillər səbəbindən Rusiyanın da digər ölkələrə neft ixracını azaltması vacibdir. Samarada söhbət, Ukraynaya hücum edən raketdaşıyıcıların yerləşdiyi Rusiyanın Qara dəniz donanmasının əsas bazası olan Novorossiysk limanından neft tədarük edən Kuybışev-Tixoretsk boru kəmərinə aiddir. Bütövlükdə, Rusiya iqtisadiyyatı rəsmi olaraq qəbul ediləndən daha ciddi problemlər yaşayır və bir il ərzində real sistemli iqtisadi böhran riski var. "Rusiya büdcəsində artıq tükənmə əlamətləri müşahidə olunur. 2025-ci ilin birinci yarısında federal xəzinədarlığın gəlirləri, ilk növbədə, neft və qaz gəlirlərinin aşağı düşməsi səbəbindən, demək olar ki, 17% azalıb. Bu gəlirlər indi əhəmiyyətli endirimlə satılır", - Ukrayna Xarici Kəşfiyyat Xidməti bildirir.

Bu arada Ukrayna prezidenti Vladimir Zelenski bəyan edib ki, ruslar öz hərbi maşınlarına pul xərcləyirlər. "Hazırda onların iqtisadiyyatı çətin vəziyyətdədir və lazımi vəsaitlər azalır", - Ukrayna lideri qeyd edib.

ABŞ prezidenti Donald Trampın da Rusiyanın iqtisadi problemlərini etiraf etməyə başlaması diqqət çəkir. O, hətta Ukraynanın ilkin sərhədləri daxilində bütün ərazisini geri almaq üçün hər cür şansa malik olduğunu təklif edib. O qeyd edib ki, o, həm Ukrayna, həm də Rusiyadakı hərbi və iqtisadi vəziyyətlə tanış olub və Rusiyanın iqtisadi çətinliklərini tam başa düşür. Ağ Evin rəhbəri hesab edir ki, Ukrayna Aİ-nin dəstəyi ilə ilkin sərhədləri daxilində döyüşmək və bütün ərazisini geri almaq iqtidarındadır. 2025-ci ilin yanvar-avqust aylarında federal büdcə xərcləri 21% artıb (23,1 trilyon rubldan 27,9 trilyon rubla). Bu arada, gəlirlər ilk növbədə qeyri-neft və qaz gəlirləri hesabına cəmi 3% artaraq 23,7 trilyon rubla çatıb. Nəticədə, Rusiya 2025-ci ilin ilk səkkiz ayında 4,2 trilyon rubla və ya ÜDM-in 1,9%-nə çataraq, 2024-cü ilin analoji dövrünün göstəricisindən dörd dəfə çox olmaqla, onilliklər ərzində görünməmiş büdcə kəsiri yaşayıb.

V.VƏLİYEV
P.S. Məqalədə xarici mənbələrə istinadlar var

“Təşəbbüslər Azərbaycanın beynəlxalq miqyasda etibarlı tərəfdaş olduğunu təsdiqləyir”

“Azərbaycan bu gün beynəlxalq aləmdə yüksək nüfuz və söz sahibi, müstəqil siyasət həyata keçirən dünyaya həmrəylik çağırışı edən dövlət kimi tanınır. Prezident İlham Əliyevin və birinci xanımı Mehriban Əliyevanın sentyabrın 22-də BMT Baş Assambleyasının 80-ci sessiyasında iştirak etmək üçün ABŞ-yə işgüzar səfəri, səfər çərçivəsində ölkə Prezidentinin qatıldığı hər bir tədbir, hər bir görüş Azərbaycana, dövlətimizin başçısına olan hörmət və etimadın bariz nümunəsidir”. Bu sözləri SİA-ya açıqlamasında deputat Pərvin Kərimzadə deyib.

Onun sözlərinə görə, Prezident cənab İlham Əliyevin BMT Baş Assambleyasının 80-ci yubiley sessiyasına - ”Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə” mövzusuna həsr olunmuş sessiyaya ədaləti təmin edən və sülh yaradan lider kimi qatılması Azərbaycanın beynəlxalq nüfuzunun təsdiqi oldu:

”Qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparıldığı beynəlxalq tədbirdə ölkə Prezidenti cənab İlham Əliyevin iştirakı Azərbaycanın milli maraqlarının müdafiəsi, həm də qlobal problemlərin həllinə töhfə baxımından böyük əhəmiyyət kəsb edir. Bəşəriyyəti təhdid edən məsələlərin həlli istiqamətində hər zaman beynəlxalq birliyi həmrəyliyə səsləyən və bu prosesə yüksək töhfə vermək üçün təşəbbüslərlə çıxış edən Azərbaycan bu gün artıq dünya birliyinin sadəcə iştirakçısı deyil, həm də beynəlxalq gündəliyin formalaşmasında fəal rol oynayan tərəfdir. 150-dən çox dövlət və hökumət başçılarını, beynəlxalq təşkilatların nümayəndələrini bir araya gətirən dünyanın ən mühüm platformasında Azərbaycanın fəal mövqeyi onu deməyə əsas verir ki, müasir dövrdə ölkəmiz təkcə regionda deyil, qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul olunur. Azərbaycan 1992-ci il martın 2-dən BMT üzvüdür.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi sayəsində Azərbaycan BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan münaqişəsinə daha çox cəlb etməyə başladı. Dahi rəhbər 1994-cü ilin sentyabr ayında BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirakı ilə Azərbaycanla BMT arasında məzmunlu tərəfdaşlığın əsası qoyuldu. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Assambleyasının xüsusi təntənəli iclasında iştirak edən Ulu Öndər bu qurumun yüksək kürsüsündən mövcud qlobal problemlərə dair Azərbaycanın prinsipial mövqeyini açıqlamış, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdı. Ulu Öndər 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında da iştirak edib, çıxışında qlobalizasiya mövzusuna toxunub, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd edib.

Ölkəmizin xarici siyasətində BMT ilə əlaqələrin inkişafına mühüm önəm verən Prezident cənab İlham Əliyev bu qurumun sessiyalarında hər zaman diqqəti artıq həllini tapmış Qarabağ probleminə yönəldib, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan edib. Prezident İlham Əliyevin 2017-ci il sentyabrın 20-də BMT-nin Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxış Azərbaycanın Ermənistana siyasi-diplomatik zərbəsi kimi tarixə düşdü. Artıq Qarabağ problemi başa çatıb, Azərbaycan dövləti torpaqlarını işğaldan azad edib, özünün ərazi bütövlüyünə nail olub. Beləliklə, dövlətimiz BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinin yerinə yetirilməsini təmin edib. Prezident İlham Əliyevin ABŞ-a səfəri göstərir ki, Azərbaycan beynəlxalq münasibətlərdə artıq müşahidəçi və ya kənar iştirakçı deyil, proseslərə təsir göstərən, qlobal gündəliyi formalaşdıran dövlətə çevrilib. Enerji, nəqliyyat və iqlim dəyişiklikləri ilə bağlı təşəbbüslər Azərbaycanın həm regional, həm də beynəlxalq miqyasda etibarlı tərəfdaş olduğunu təsdiqləyir. Bu reallıq isə Azərbaycanın yaxın gələcəkdə qlobal əməkdaşlığın əsas mərkəzi oyunçularından biri olacağını göstərir”.

Arzu Qurbanlı

Mobil operatorlar insan sağlamlığını niyə risk altına atır?

Vüqar Vəliyev

Son illərdə Azərbaycanda mobil rabitə xidməti sahəsində qiymət artımları diqqət çəkir. Amma bu artımların tamamilə süni və əsassız olduğunu bilən çox az adam var. Dünya miqyasında mobil internet və danışıq qiymətlərinə baxdıqda, Azərbaycandakı qiymətlər çox yüksəkdir; çox az ölkə var ki, bizim qədər yüksək qiymət ödəyəsiniz. Buna baxmayaraq, xidmət keyfiyyəti bu qiymət artımlarını doğrultmur.

Əlavə olaraq, mobil operatorların xərcdən yayınmaq üçün tətbiq etdiyi siyasət - ötürücüləri istənilən obyektin üzərinə quraşdırmaq - insan sağlamlığını ciddi şəkildə risk altına atır. Binaların damları, məktəblərin yaxınlığı, kiçik obyektlərin üzəri - bu yerlər çox vaxt normalara uyğun olmayan şəkildə ötürücülərlə doludur. Elm göstərir ki, uzun müddət yüksək səviyyəli elektromaqnit şüalanmaya məruz qalmaq baş ağrısı, yuxusuzluq, sinir sistemi pozğunluqları, yaddaş zəifləməsi və bəzi xroniki xəstəliklər yarada bilər. Amma çox az insan bu təhlükədən xəbərdardır.

Süni qiymət artımı və aşağı xidmət keyfiyyəti:

Operatorlar illərdir qiymətləri süni şəkildə artırır, amma xidmətin keyfiyyətini yüksəltmir. İstifadəçilər daha çox pul ödəyir, amma nəticədə həm xidmət keyfiyyəti aşağı olur, həm də insanlar təhlükəli şüalanmaya məruz qalır. Bu, sosial məsuliyyətsizlik və iqtisadi qazanc hədəfinin açıq nümunəsidir.

Normativlər və reallıq:

Ötürücülər yaşayış binalarından minimum məsafədə yerləşdirilməlidir.

Şüalanma səviyyəsi insanların sağlamlığı üçün təhlükəsiz həddi aşmamalıdır.

Quraşdırılan obyektlər mütəmadi yoxlanmalı və sertifikatlandırılmalıdır.

Xüsusilə məktəblər, xəstəxanalar və yaşlı insanların olduğu yerlərin yaxınlığında ötürücü quraşdırmaq tam qadağan edilməlidir. Lakin reallıq fərqlidir: operatorlar xərci azaltmaq üçün ötürücüləri istənilən yerə, normaları gözardı edərək quraşdırır. Bu, insan hüquqlarının - sağlam yaşamaq hüququnun - açıq pozulmasıdır.

Dövlət və ictimaiyyətin rolu:

Bu problem yalnız operatorların məsuliyyəti deyil. Dövlət qurumları, regulatorlar və cəmiyyət bu məsələyə ciddi şəkildə müdaxilə etməli, normativlərin pozulmasına qarşı sərt tədbirlər görməlidir. İnsanlar məlumatlandırılmalı, şüalanma riskləri barədə ictimaiyyət açıq şəkildə xəbərdar edilməlidir.

Nəticə:

Mobil operatorların xərcdən yayınması, süni qiymət artımları və təhlükəli ötürücü quraşdırmaları qətiyyən yolverilməzdir. Operatorlar qazanc üçün insan sağlamlığını qurban verə bilməz. Ötürücülər normativlərə uyğun quraşdırılmalı, şüalanma səviyyəsi təhlükəsiz həddi daxilində olmalı və cəmiyyət daim məlumatlandırılmalıdır. Bizim haqqımız - sağlam mühitdə yaşamaq haqqımız - iqtisadi maraqlardan üstün tutulmalıdır.

Oxucuya çağırış:

Hər birimiz öz ətrafımızda ötürücülərin təhlükəli yerləşdirilməsinə diqqət etməli, məsul qurumlara müraciət etməli və hüquqlarımızı tələb etməliyik. İnsan sağlamlığı heç bir qazancdan üstün deyil!

Şəhidlərin xatirəsinə Abşeronda yeni yaşıllıq sahəsi salındı

Azərbaycan QHT-ləri şəhidlərin xatirəsinə həsr olunan ağacəkmə aksiyası keçirib

2025-ci il sentyabrın 25-də Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Azərbaycan Milli QHT Forumunun birgə təşkilatçılığı ilə Bakının Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirilib.

27 sentyabr- Anım günü ilə bağlı keçirilən aksiya zamanı 1 hektar ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun olaraq, Eldar şamı və zeytun ağacları əkilib.

Bu yaşıllaşdırma aksiyası Azərbaycan Respublikasının Konstitusiya quruluşunun müdafiəsi, ərazi bütövlüyünün və dövlət suverenliyinin müdafiəsi uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsinə ithaf olunub. Aksiyada 100-dən artıq QHT təmsilçisi iştirak edib. İştirakçılar müxtəlif tinglərin əkilməsi və sulanmasını həvəslə yerinə yetiriblər.

Qeyd edək ki, həmin ərazidə çox böyük sahədə yaşılıqlar salınıb və suvarma xəti ilə təmin edilib. Abşeron yarımadasının boş ərazilərinin yaşıllşadırılması həm bu zonanın həm də Bakı, Sumqayıt və Xırdalan kimi iri şəhələrin ekologiyasına müsbət təsir edəcək. Süni meşələrin və yaşıllıq sahələrinin salınması xüsusilə bu zonada çox vacibdir və bu iş mütamadi olaraq davam etdirilir. Abşeronu yaşıllaşdırmaq işində həm dövlət orqanlarının həm də ictimai təşkilatların fəallığı son dərəcə əhəmiyyətlidir.

Elçin Bayramlı

Cinsiyyət "parti"si: sizcə ehtiyac var?..

Son illərin ən "məşhur" ziyafətlərindən birinin adı cinsiyyət "parti"sidir. Burada məqsəd nədən ibarətdir? Adından da göründüyü kimi, uşağın cinsiyyətinin, yəni hamilə qadının bətnində daşıdığı dölün oğlan və ya qız olmasının təntənəli şəkildə dostlara, rəfiqələrə, yaxın və uzaq qohumlara, iş yoldaşı və qonşulara bəyan edilməsidir.

Bu cinsiyyət "parti"si əslində bizim xalqa məxsus olmayan tədbirdir. Əvvəllər Azərbaycanda ümumiyyətlə, belə bir ziyafət keçirilməyib. Çünki əvvəllər heç USM müayinələri də yox idi. Və ailələrdə hamilə qadının dünyaya gətirəcəyi uşağın oğlan və ya qız olacağını da heç kim bilmirdi. Bilinsəydi də, belə tədbirin keçirilməsi, uşağın cinsiyyəti haqqında hər kəsə məlumat verilməsi lüzumsuz bir məsələ olduğu üçün buna ehtiyac da olmazdı.

Lakin çox təəssüf ki, müasir cəmiyyətimiz əvvəlki cəmiyyətimizdən fərli şəkildədir. Və bu gün bəzi gənclərin istəkləri, düşüncələri, həyata baxışları ilə bizim milli dəyərlərimizə məxsus olanlar üst-üstə düşmür. Bu səbəbdən də xalqa məxsus olmayan çoxsaylı bu kimi yeni mərasim, ziyafət və tədbirlər yaranıb. Və təəssüf ki, yaşlı və orta nəslin nümayəndələrini də belə tədbirlərdə görmək olur.

Cinsiyyət parti"sinə ehtiyac varmı? Varsa, bəlkə onu bir qədər milli formaya uyğunlaşdırmaq lazımdır. Axı bu "parti"lər heç nəyi ilə bizim azərbaycanlı olduğumuzu göstərmir. Bu barədə danışaq.

Dekor, tort, musiqi...

Ən birinci "parti" sözündən başlayaq. Azərbaycan dilinin orfoqrafiya lüğətində "parti" sözü yoxdur. Lakin biz bu sözü ana dilimizə məxsus kimi yeri gəldi, gəlmədi istifadə edir, foto və videoları bu sözlə paylaşırıq. Hələ üstəlik bizim bəzi jurnalistlərimizin yazıları var ki, onlar da "parti" sözünü yazılarında dırnaqdan istifadə etmədən, öz sözümüz kimi ifadə edirlər. Və çox böyük yanlışa yol vermiş olurlar.

Cinsiyyət "parti"sində ki, dekor qurulur, bu həmin ziyafətin əsas hissəsindən biridir. Böyük dekor iki hissəyə bölünür: mavi və çəhrayı, çəhrayıda qız, mavidə isə oğlan yazılır. Bu yazı hansı dildə yazılır, təbii ki, ingilis dilində. Burada böyük şarlar da olur və onların da üzərində ingilis dilində oğlan və qız yazılır.

Tədbir üçün tort sifariş verilir. Üzərində yenə də iki rəngdən istifadə olunur və ingilis dilində oğlan və qız yazılır.

Tədbirdə səsləndirilən musiqilərə gəlincə, burada təsadüf nəticəsində Azərbaycan mahnısı səsləndirilsə, sevinmək, alqışlamaq olar. Lakin bu sevinci yaşamaq ancaq bir təsadüf ola bilər. Çünki cinsiyyət "parti"sində əsasən xarici ölkələrin musiqilərinə müraciət olunur, xüsusilə də türk mahnıları səsləndirilir. Belə olan təqdirdə bu ziyafətin Azərbaycanla, bu xalqa hansı əlaqəsi olduğu sual doğurur. Əlbəttə, belə tədbirlərdə tanıdığımız insanlar olmasa, və yaxud da sosial şəbəkələrdə belə videoların aşağı hissəsində bizə məxsus adlar yazılmasa, bunun harada keçirilməsi marağa səbəb olur.

Beləliklə, özlərini müasir adlandıran, "yeniliklərlə" ayaqlaşmağa çalışan bəzi gənclərimiz bax, bu kimi tədbirlərlə Azərbaycandan, dilimizdən, adət və ənənələrimizdən, musiqimizdən zaman-zaman uzaqlaşır. Hər hansı bir irad bildirəndə isə "gənclərin üzərinə çox gedirsiniz",- deyirlər.

Hamilə qadının paltarından danışaq...

Cinsiyyət "parti"sinin əsas qəhrəmanı olan hamilə qadın "parti" üçün xüsusi paltar seçir. Bu paltar çox halda hamiləliyi o qədər bariz şəkildə göstərir ki, adam baxdıqca, ikrah hissi keçirir. Bədəninin bütün ölçüləri paltara yapışır, qarın hissə isə xüsusilə. Düşünürsən ki, görəsən, bu paltar onun bətnindəki uşağı əzmir, sıxmır? Görəsən yazıq uşaq orada necə nəfəs alır?

Vaxt var idi ki, qadınlarımız hamilə olanda elə paltarlar seçirdi ki, bətninin böyüməsi diqqəti cəlb etməsin. Yəni belə bir ədəb-ərkan var idi. Qayınata, ata, qayın-qardaş yanında hamilə qadınlar az görünməyə çalışırdı. Onsuz da geyindikləri geniş paltarda heç nə bilinmirdi, lakin daxilindəki həya onları utandırır, çəkindirirdi.

Bu barədə gənc qızlar arasında bir neçə dəfə söhbətimiz olub. Onlardan bəziləri bunu təqdir edir, səmimi qarşılayır, lakin bəziləri "hamilə olmaqda utanmalı nə var ki?",- deyir, hələ üstəlik keçmiş adət-ənənələrə qarşı da çıxırlar. "Qadın hamiləliyini niyə gizlətməlidir?", "dünyaya uşaq gətirmək niyə ayıbdır?",- deyə illər öncə qız-gəlinin bu adəb-ərkanını məsxərəyə qoyanlar da var.

Çox təəssüf ki, belə gəncləri başa salmaq olmur ki, əlbəttə, hamilə olmaq ayıb, qüsur deyil, lakin onu dar paltarlarla nümayiş etdirmək ayıbdır, düzgün deyil. Bu, həm uşağa ziyandır, həm də qadınlığa, abır-həyaya xas olmayan haldır.

Lakin cinsiyyət "parti"lərində qadınlar sanki hamiləliyini önə çıxarmaq, nümayiş etdirmək, "hamilə qadın mənəm",- deyə bunu hamıya bəyan etmək məqsədilə bu cür dar paltarlar geyinirlər. Təbii ki, bu, hər kəsə aid deyil. İnsafən geniş paltar geyinənlər də var. Lakin etiraf edək ki, hamiləliyi qabarıq şəkildə ortalığa çıxaran paltar geyinənlər çoxluq təşkil edir. Və təəssüf ki, belə tədbirlərdə çəkilən foto və videoları sosial şəbəkələrə yerləşdirirlər və çoxsaylı kişi də əsla narahat olmur ki, mənim həyat yoldaşımı hər kəs bu şəkildə görür.

Cinsiyyət "parti"lərində qazandığımız və itirdiyimiz

Əslində özündə heç bir mənanı ehtiva etməyən cinsiyyət "parti"sinin keçirilməsi vacib deyil. Allah-təalanın bəxş etdiyi övlad doqquz aydan sonra dünyaya gələcək, qızdırsa da, şükür yaradanın verdiyinə, oğlandırsa da. Bunun üçün bir xeyli vəsait xərcləyib USM müayinəsindən keçmək, "parti" təşkil etmək üçün də xeyli vəsait xərcləməyə ehtiyac varmı?

Sərf olunan vəsaitlə uşaq üçün nə lazımdırsa, almaq, ehtiyaclarını ödəmək olar. Bu mərasimlərə xərclənən vəsaitlə hər hansı bir imkansız ailəyə kömək etmək, yetim uşağı sevindirmək olar. Yüzlərlə ailə var ki, övladına məktəbli forması, ləvazimatı ala bilmir. Gündəlik tələbatını ödəyə bilmir. Bax, onların ehtiyacını ödəmək cinsiyyətin bəyan "parti"sinə xərcləməkdən daha səmərəli olmazmı? Bu "parti"lərə dekor, tort, gül-çiçək, geyim, şirniyyat, şar və sair üçün xərclənən pulu elə bir yerə xərcləmək olar ki, həqiqətən də bir savabı olar.

Lakin bunları kimdir düşünən? Bu gün cəmiyyətimizin bəzi nümayəndələrinin belə mərasim, ziyafətlər keçirməkdə məqsədi foto, video çəkib sosial şəbəkə platformalarında paylaşmaqdır. Yoxsa uşağın cinsiyyətini yalnız USM otaqlarında da öyrənmək olar. Ta bunu belə tədbirlərlə insanlara nümayiş etdirməyə ehtiyac yoxdur.

Qazandıqları nədir, heç nə deyə bilmirəm, lakin belə tədbirlərlə ümumilikdə xalq, millət olaraq itirdiklərimiz çox olur. Mənəvi cəhətdən kasıb insanlar bu kimi tədbirlərlə bir xalqın əsrlər boyu zərrə-zərrə əldə edib formalaşdırdığı dəyərlərə zərbə endirir. Öz daxili kasıblığını heç bir vasitə ilə zənginləşdirə bilməyən insanlar belə ucuz tədbirlərlə dilimizin saflığına, milli musiqimizə, adətlərimizə xələl gətirir. Bir sözlə, itirə-itirə gedirik belə insanlar üzündən. Bəs qarşıda bizi nələr gözləyir, bunu düşünən varmı, görəsən?

Nə gördüksə, onu tətbiq etməliyik?

Belə nəticəyə gəlmək olur ki, bizim cəmiyyətin bəzi nümayəndələri-burada yaşlı, orta nəsil də var, gənclər də, nəyi harada görüb bəyənirlərsə, yerli-yersiz bizim cəmiyyətdə də tətbiq etməyə çalışırlar. Cinsiyyət "parti"si, "Baby shower", it və pişiklərə ad günü keçirmək, bunun üçün dəvətnamə göndərmək bizim cəmiyyətə məxsus olmayan, milli dəyərlərimiz xaricində olan tədbirlərdir. Bu mərasimləri hansı bir ölkədə görüb xoşlayıb öz ağlı çərçivəsində ölkəmizdə də yaymağa çalışanlar nə düşünür, nə əldə etməyə çalışır, anlamaq çətindir.

Lakin adamı bir məsələ narahat etdiyi üçün belə bir sual da yaranır: görəsən qonşu ölkələr da daxil olmaqla, hər hansı ölkədə bizə məxsus olan bir mərasimi oradakı insanlar tətbiq edərmi, cəmiyyətlərinə yenilik olaraq gətirərmi? Əsla, yox. Biz evimizdə Azərbaycan yox, Türkiyə televiziyalarına baxır, öz filmlərimizi deyil, türk film və seriallarını izləyir, toylarımızda öz musiqimizdən çox xarici ölkə və türk mahnıları səsləndirir, dilimizə türk və ingilis, rus dillərinə məxsus sözlər qatırıq ha, inanın, bu, yalnız bizdə belədir. Heç bir qonşu ölkə bizim nə filmlərimizə baxır, nə musiqimizi dinləyir, nə də sözlərimizdən birini dilinə gətirir. Belə isə, nə üçün məhz biz? Nə üçün biz dilimizə, dəyərlərimizə, mədəniyyətimizə, ənənələrimizə başqa ölkələrə aid olanları qatmalıyıq? Bu haqqı bizə kim verir?

Nə üçün harada nə görürüksə, onu təkrarlamağa çalışırıq? Bu gündəlik həyatımızda da belədir. Yəni geyimimizdə, saçımızda, davranışımızda, özümüzü cəmiyyətdə aparmağımızda və sair. Eləcə də "Cinsiyyət "parti"si, "Baby shower" kimi tədbirləri mənimsəməyimizdə.

Bəlkə özümüzə qayıdaq? Bəlkə bir oturub bu barədə düşünək? Bəlkə düşünsək, özümüzdə olanların hər kəsdəkindən dəyərli olduğunu anlayar və özümüzdən çıxmarıq?..

Allah bizə düşünməyi nəsib etsin!

Mətanət Məmmədova

“27 sentyabr Azərbaycan üçün milli həmrəylik və strateji baxışın təzahürüdür”

“27 sentyabr Azərbaycan üçün yalnız hücum tarixi deyil, həm də milli həmrəyliyin, güclü dövlət iradəsinin və strateji baxışın təzahürü olmuşdur”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib. Onun sözlərinə görə, bu hadisə ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında və beynəlxalq hüququn qorunmasında mühüm dönəm yaratdı: ”Azərbaycan Silahlı Qüvvələrinin qəhrəmanlığı və xalqın birliyi nəticəsində torpaqlarımızın böyük hissəsi işğaldan azad edildi və Laçın, Kəlbəcər, Füzuli kimi strateji ərazilər geri alındı.Bundan başqa, 27 sentyabrın ardından Azərbaycan regional və qlobal siyasətdə daha güclü aktor olaraq ortaya çıxdı. Qonşu ölkələrlə strateji əməkdaşlıqlar inkişaf etdi, ölkəmizin tranzit və nəqliyyat imkanları artdı və beynəlxalq aləmdə diplomatik mövqeyimiz möhkəmləndi. Bu hadisə göstərdi ki, milli birlik və güclü dövlət idarəçiliyi həm ərazi bütövlüyünü qorumaq, həm də regionda sülh və stabilliyi təmin etmək üçün əsas faktorlardır”.

Ziya Hikmətoğlu

Real Ermənistan-Araratsız, Qarabağsız, soyqırımsız və...

Noyabrın 1-dən Ermənistan sərhəd-keçid möhürlərindən Ağrı dağının təsvirini siləcək; hökumət bununla bağlı müvafiq qərar qəbul edib. Ararat Ermənistanın milli simvolu hesab olunur. Ölkənin gerbində bu dağ təsvir olunub, bütün keçmiş SSRİ-də məşhur olan konyak onun adını daşıyır, futbol klubu onun adını daşıyır və s. Bu dağın Türkiyə ərazisində yerləşməsi ermənilər üçün tarixi travma olaraq qalır.

”RitmEvraziya” (www.ritmeurasia.ru) portalında bu mövzuda dərc olunmuş məqaləni oxucularımıza təqdim edirik.

Ermənistanın hər yerində Ağrı dağının təsvir olunması Türkiyəni həmişə qəzəbləndirib. Aydındır ki, Araratın möhürlərdən silinməsi qərarı Ankaraya xoş gəlmək üçündür. Gerbdən də götürülsəydi, məntiqli olardı. Və bu təkcə müəllifin təxəyyülü deyil. Ermənistanın keçmiş xüsusi tapşırıqlar üzrə səfiri Edmon Marukyan bəyan edib ki, Ermənistan hakimiyyəti ölkənin gerbindən Ağrı dağının təsvirini silə bilər.

Onun sözlərinə görə, hökumətin bu təşəbbüsünün Türkiyə ilə münasibətlərin normallaşması ilə heç bir əlaqəsi yoxdur. Marukyan hesab edir ki, onlar bunu ”erməni kimliyini dəyişdirmək üçün” etmək istəyirlər. ”İsrar edirəm ki, belə bir şərt yoxdur. Sərhədi açmaq üçün Ermənistanı Ağrı dağını bütün dövlət rəmzlərindən çıxarmağa məcbur edən sənəd göstərsinlər”,- o deyib.

Baş nazir Nikol Paşinyan ”Ararat”ın markalardan çıxarılmasının Türkiyənin tələbi olduğuna dair iddiaları təkzib edib. O, bunun ”Ermənistanı düzgün yola salmaq və ölkənin dövlətçiliyini gücləndirmək” məqsədi ilə edildiyini iddia edir. Hakim ”Vətəndaş sazişi” partiyasının parlamentdəki fraksiyasının katibi Artur Hovhannisyanın da dediyi kimi, Ermənistanın heç bir hərəkəti qonşu ölkələrə təhlükəli siqnallar verməməlidir.

Bu məntiqdən çıxış edərək, Bakının Ermənistanın Qarabağla birliyi qeyd edən konstitusiya dəyişiklikləri tələbləri yerinə yetirilməlidir. Azərbaycan çoxdan buna can atır, lakin Ermənistan hakimiyyəti indiyədək bu məsələni uzadır. Lakin de-fakto və de-yure İrəvan çoxdan Qarabağdan formal olaraq imtina edib. Üstəlik, hakimiyyət daim vurğulayır ki, bu, sadəcə olaraq Ermənistanın əl-ayağını bağlayan, qonşuları ilə normallaşmaya mane olan bir yük idi. Məhz bu yay Paşinyan 2022-ci ildə Qarabağı Azərbaycana verən Ermənistanın suverenlik əldə etdiyini bəyan etdi. ”Dağlıq Qarabağı itirməyimizlə bağlı çox danışılır. Təbii ki, mən bu məsələ haqqında çox düşünmüşəm. ”Cavab isə belədir: biz Dağlıq Qarabağı itirməmişik, Ermənistan Respublikasını qazanmışıq”,- Paşinyan paylaşıb.

O, əvvəllər də demişdi ki, ”Qarabağ hərəkatı” Ermənistan dövlətçiliyinin formalaşmasına əngəl törətdiyi üçün davam etməməlidir.

Bu, ermənilər üçün ikinci həssas məsələdir. Üçüncüsü də var: soyqırım məsələsi. Burada da hakimiyyət geri çəkildi. Avqustun sonunda Paşinyan eyham vurmuşdu ki, erməni soyqırımının beynəlxalq aləmdə tanınması Ermənistana heç bir fayda verməyəcək, çünki soyqırım mövzusu ”geosiyasi alver predmetinə” çevrilir.

Təbii ki, Ermənistan hakimiyyəti hələ də soyqırımı inkarına keçməyib; bu, Cinayət Məcəlləsinə uyğun olaraq cəzalandırılır. Ancaq bu, gələcəyə zəmanət vermir. Bu yaxınlarda Ermənistanın hakim partiyası parlament müxalifətinin təqdim etdiyi erməni soyqırımını inkar edənlərə görə cinayət cəzalarının sərtləşdirilməsini təklif edən qanun layihəsini rədd edib. Təməl qoyurlarmı?

Ararat, Qarabağ və soyqırım ermənilər üçün həssas məsələlərdir, lakin Paşinyan və komandası onları sistemli şəkildə silir. Bura kilsəyə təzyiq və onun rəhbərlərinin təqib edilməsi daxildir. Politoloq Suren Surenyantsın fikrincə, hakimiyyət Ermənistanın siyasi və sivilizasiya kimliyinə müharibə elan edib. ”Görürsünüz, dövlət indi öz məqsədini itirir. Biz bu gün bunu itiririk. İndiki hakimiyyət yeni seçki dövrünə yaxınlaşır, Ermənistanın siyasi və sivilizasiya kimliyinə müharibə elan edir. Bütün nailiyyətlərə yenidən baxılır. Cəmiyyətimiz bunu nəzərə alaraq seçkilərə getməlidir. Amma bir daha təkrar edirəm: Ermənistan Respublikasının seçkilərdə qalib gələcəyi şansı görürəm”.

Bu yaxınlarda Surenyants hakim partiyanın yeni seçki platformasını da tənqid etdi, onun sözlərinə görə, aydın meyarların olmaması və qeyri-müəyyən ifadələr səbəbindən konkret rəqəmlər və ya əldə edilə bilən məqsədlər olmadan daha çox ”masa tostuna” bənzəyir. Ekspert platformanın əsas tezisini- ”Sülh təhlükəsizliyin təminatıdır” tezisini tənqid edərək qeyd edib ki, Ermənistan kimi ölkə üçün təhlükəsizliyin daha vacib təminatı sənəddə qeyd olunmayan hansısa təhlükəsizlik sistemində iştirakdır.

Bir çox həmkarlarının və indiki siyasətçilərin fikirlərini bölüşən ekspertlə razıyıq. Ermənistanın KTMT üzvlüyündən imtina etməsi üçün heç bir səbəb yoxdur. Lakin təşkilatda iştirakını ”donduran” İrəvan uzun müddətdir ki, NATO ilə dostluq edir, birgə təlimlər keçirir və müxtəlif sahələrdə müxtəlif əməkdaşlıq müqavilələri imzalayır.

Qeyd edək ki, Yerevan və Vaşinqton ilin əvvəlində Ermənistanın enerji sektoruna nəzarəti faktiki olaraq ABŞ-a verən strateji tərəfdaşlıq sazişi imzalayıblar. Və avqust ayında Vaşinqtonda üçtərəfli görüş zamanı N.Paşinyan və Azərbaycan prezidenti İlham Əliyev ABŞ prezidenti Donald Trampla 2020-ci ilin noyabrında üçtərəfli (Rusiya-Ermənistan-Azərbaycan) bəyanatını pozaraq, faktiki olaraq Zəngəzur dəhlizinə nəzarəti ABŞ-a verən birgə bəyannamə imzalayıblar.

Yeri gəlmişkən, elə həmin ay xarici işlər nazirinin müavini Vahan Kostanyan ilə Böyük Britaniyanın Avropa, Şimali Amerika və xarici ərazilər üzrə dövlət naziri Stiven Doughty arasında keçirilən görüşdən sonra Ermənistan və Böyük Britaniyanın ikitərəfli münasibətlərini strateji tərəfdaşlığa yüksəltmək niyyətində olduqları açıqlandı. Bu yaxınlarda Parisdə iki ölkənin xarici işlər nazirliklərinin nümayəndələri arasında siyasi məsləhətləşmələr keçirilib və onlar Ermənistan və Fransanın strateji tərəfdaşlıq sənədini də necə imzalayacaqlarını müzakirə ediblər.

Beləliklə, burada təlimatlar və ”təhlükəsizlik sistemində” iştirak var. Və təbii ki, Türkiyə ilə tərəfdaşlıq. Sentyabrın əvvəlində Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan hakimiyyətin Türkiyə ilə sərhədləri açmağa və diplomatik əlaqələr qurmağa hazır olduğunu bəyan edib. Türkiyə isə bunun tərəfdarıdır, bunu başa düşmək lazımdır.

Beləliklə, nəticə nədir? Qarabağı Konstitusiyadan, Araratı dövlət gerbindən çıxarmaq, soyqırımın tanınması üçün lobbiçiliyi azaltmaq, Zəngəzur marşrutunu açmaq və Paşinyanın sözləri ilə desək ”Ermənistanı düz yola salmaq və ölkənin dövlətçiliyini gücləndirmək” vəzifəsi yerinə yetirmək. ”Əsl Ermənistan” yaranacaq- Paşinyanın təbliğ etdiyi konsepsiyanın adı belədir.

İdeya ondan ibarətdir ki, ölkə 30 ildir ki, təcrid şəraitində yaşayır, lakin bunun üçün sadəcə qonşuları ilə barışmaq və sərhədlərini açmaq lazımdır- və ümumi firavanlıq dərhal gələcək. Biz Serbiyada da buna bənzər bir şey gördük, o, ərazi uğrunda gedən müharibələri uduzaraq öz liderlərindən imtina edərək onları Haaqa məhkəməsinə verdi. Bu Serbiya üçün yaxşı bitmədi; ölkə siyasi böhranlarla sarsılır, Şərqlə Qərb arasında ilişib qalır, heç vaxt onlar arasında ”körpü”yə çevrilmir.

Bununla belə, serblərin siyasi və iqtisadi mövqeyi ermənilərdən qat-qat güclüdür. Sonuncular öz keçmiş düşmənlərinin rəğbətini qazanmaqla nəinki ərazilərinin bir hissəsini, hətta bütün suverenliklərini tamamilə itirmək riski ilə üzləşirlər. Bununla yanaşı, İrəvan Rusiyanın himayəsindən qəsdən imtina edir.

Erməni seçicilərinin bütün bunlara necə qiymət verməsi 2026-cı ilin iyununa təyin edilmiş parlament seçkilərinin nəticələrindən sonra bəlli olacaq. Müxalifət də onlara hazırlaşır: bu yaxınlarda ”Mənim şərəfim” fraksiyası Baş nazirə etimadsızlıq ifadə edən, onu sosial-iqtisadi və milli həyatı ciddi problemlər yaradaraq, ölkənin gələcəyini təhlükə altına qoymaqda, milli təhlükəsizlik, dövlətçilik üçün hər cür fəlakətli nəticələrə səbəb olmaqda ittiham edən qanun layihəsi hazırladı. Başa düşmək lazımdır ki, indiki parlamentdə müxalifətin impiçment üçün səsləri sözsüz ki, olmayacaq, amma bu, gələcəyə baxışdır; bu artıq seçki kampaniyasının başlanğıcıdır.

Digər sual budur ki, bu, mənfi reytinqləri yüksək olaraq qalan Ermənistan müxalifətinə kömək edəcəkmi? İstənilən halda, bu seçkilər Ermənistanın ən yaxın tarixində ən mühüm seçki ola bilər- onlar əsas məsələni həll edəcəklər: ölkənin mövcud olub-olmayacağını.

Tərcümə - Elçin Bayramlı

Rusiyanın itirilən neft gəlirləri

Neft qiymətləri Rusiya və Ukrayna arasındakı müharibəyə necə təsir edir?

Neftin qiyməti hər gün dəyişir. Əhəmiyyətli amillərin birləşməsi qiymətə, xüsusən də geosiyasi vəziyyətə təsir göstərir. Neftin bir barelinin qiyməti istehsalçıdan da asılıdır. Rusiyanın Ural neftinin qiyməti hazırda 62,51 dollar/barel təşkil edir. Bloomberg-in məlumatına görə, bu gün neftin qiyməti bir həftə ərzində ən çox bahalaşıb. Vəziyyətə Rusiya dizel ixracının azalması və Trampın Rusiyaya təzyiqinin artması təsir edib. Konkret olaraq Amerika prezidenti deyib ki, NATO ölkələri onların hava məkanını pozan Rusiya təyyarələrini vurmalıdır. Tramp Rusiya neftinin əsas alıcılarını da müəyyən edib. Çin və Hindistanın davam edən müharibənin əsas sponsorları olduğunu, Rusiya neftini almağa davam etdiyini söyləyib. Bu səbəbdən investorlar Rusiyadan enerji tədarükü üçün riskləri ölçməyə çalışırlar.

Ukrayna və onun müttəfiqləri neftin qiymətini aşağı salmaq üçün nə edir?

Bütövlükdə bu il Rusiyanın neft və qaz gəlirləri azalıb. 2025-ci ilin avqustunda onlar keçən ilin eyni dövrü ilə müqayisədə 35% az olublar. Aİ və Ukrayna Rusiyanın neft və qaz gəlirlərinin azalmağa davam etməsi üçün çalışır. Bu məqsədlə Rusiya neftinin yeni maksimum qiyməti 2025-ci il sentyabrın 3-də tətbiq edilib: əvvəlki 60 dolları əvəz edərək, 47,6 dollar/barel. Bu qərarı Aİ-nin Rusiyaya qarşı 18-ci sanksiya paketi kontekstində Ukrayna Prezident Aparatının rəhbəri Andriy Yermak açıqlayıb.

Aİ-nin məlumatına görə, gələcək qiymət həddinin avtomatik və dinamik tənzimlənməsi mexanizmi tətbiq edilir ki, bu da əvvəlki hesabat dövrü üçün Rusiyanın Urals xam neftinin orta bazar qiymətindən təxminən 15% aşağı qalacağı gözlənilir. Müttəfiqlərin koalisiyası həmçinin qiymət həddi azaldılmasını elan etdi: Böyük Britaniya hökuməti onu bir barel üçün 47,6 dollara endirmək qərarına gəlib, Kanada isə təşəbbüsə qoşulub, həmçinin qiymət həddini bir barel üçün 47,6 dollar təyin edib. Bu addımlar enerji bazarını sabitləşdirmək və Rusiya neftinin ixracına maliyyə təsirini azaltmaq məqsədi daşıyır. Yeni həddin qiymət şəffaflığını artıracağı və Rusiyaya qarşı sanksiyalarda beynəlxalq koordinasiyanı gücləndirəcəyi gözlənilir.

Mütəxəssislərin fikrincə, 47,6 dollar/barel həddi Rusiyanın neft tədarükündən əldə etdiyi gəlirləri azaltmaqla yanaşı, eyni zamanda idxalçı ölkələrə uzunmüddətli perspektivdə enerji təhlükəsizliyini qoruyub saxlamağa imkan verməlidir. Bundan əlavə, Aİ-nin Rusiyaya qarşı yeni 19-cu paketi üçüncü ölkələrin neft şirkətlərinə yönəlib. Bu, təxminən on Çin və bir neçə Hindistan şirkətinə təsir edəcək, çünki Brüssel Kremlin neft dollarlarına çıxışını kəsməyə çalışır. Avropa Komissiyasının sədri Ursula fon der Leyen Rusiyanın enerji ixracına dair 19-cu məhdudiyyət paketinə toxunaraq, "İndi masamızda yeni sanksiyalar paketi var. Üzv dövlətlər razılaşmalıdır, lakin biz daha sürətli hərəkət etməliyik, çünki hər ödəniş Putinin döyüş sinəsini doldurur".

Rusiyanın neft gəlirlərinin azalması həm də Ukraynanın Rusiya neft sənayesinə, o cümlədən neft kəməri üzərindəki nasos stansiyalarına və neft emalı zavodlarına hücumları ilə bağlıdır. Bloomberg qeyd edib ki, Kiyev son bir ayda Rusiyanın yanacaq infrastrukturuna hücumları gücləndirib. Ukrayna qüvvələri demək olar ki, hər gün Rusiyanın neft emalı zavodlarına zərbələr endirir. Rusiyanın yanacaq istehsalında itkiləri on milyonlarla tonla ölçülür. Hərbi ekspert və Ukrayna Könüllülər Ordusunun sözçüsü Serhiy Bratçuk "Biz-Ukrayna" telekanalında deyib ki, mülki işğalçılar, yəni Rusiya vətəndaşları yanacaq qıtlığı yaşamağa başlayıblar. Bu, müvəqqəti işğal olunmuş Krım, Saxalin və Kuril adalarında baş verir. O əlavə edib ki, Rusiyanın hazırda "qaz nasosları" şəklində verdiyi itkiləri ilk növbədə mülki şəxslər hiss edəcək. "Hazırda çətin ki, kimsə mütləq şəkildə deyə bilsin ki, Rusiya cəbhədə özünü hiss etmək üçün neçə milyon ton yanacaq itirməli olacaq", - ekspert qeyd edib.

Bratçuk əlavə edib ki, faiz ifadəsində Rusiya neft bazarının 20-25%-i itirilib. O izah etdi ki, onlar hər şeyi mülki şəxslərdən alırlar - bu başa düşüləndir. Vacib olan Rusiyanın saxlama çənlərini itirməsi deyil, Rusiya neft emalı zavodlarını bağlayan avadanlıqdır.

Neft və qaz gəlirlərinin azalması müharibənin gedişatına necə təsir edir

Rusiyanın neft və qaz gəlirləri işğalçı ölkənin büdcəsinin əsas hissəsini təşkil edir, ona görə də onlara vurulan zərbə onun Ukraynaya qarşı müharibə aparmaq qabiliyyətinə zərbədir. "Forbes" artıq Ukraynanın Rusiya neft emalı zavodlarına endirilən zərbələrə görə Rusiya ilə danışıqlarda güclü sövdələşmələr əldə etdiyini bildirib. "Ukrayna Silahlı Qüvvələri Rusiyanın neft emalı zavodlarına hücumlarının intensivliyini artırır. Bu, qarşıdakı sülh danışıqları zamanı tərəflərin mövqelərinə ciddi təsir göstərə bilər", - amerikalı analitik Vikram Mittal Forbes üçün şərh edib.

Ekspert xatırladıb ki, hələ ilin əvvəlində Kiyev və Moskva arasında danışıqlara dair müzakirələr dalana dirənib. Bəzi siyasətçilər, o cümlədən ABŞ prezidenti Donald Tramp açıq şəkildə bəyan ediblər ki, Ukraynanın Rusiya ilə danışıqlarda "kozırları" yoxdur. Bununla belə, Rusiya neft emalı zavodlarına bir sıra uğurlu dron hücumları vəziyyəti kökündən dəyişib. Bu zərbələr sayəsində Rusiya müharibəsi üçün əsas maliyyə mənbələrindən biri əhəmiyyətli dərəcədə azalıb.

Hesablamalara görə, təkcə avqust ayında bu hücumlar Rusiyanın neft emalı gücünün təxminən 17%-ni dayandırmağa məcbur edib. Təcavüzkar ölkənin enerji infrastrukturuna hücumlar bütün sentyabr ayı ərzində davam edib. Bu, artıq Rusiyada yanacaq böhranına səbəb olub, benzin qıtlığına və qiymətlərin artmasına səbəb olub. Bratçuk qeyd edib ki, neft emalı zavodlarına tətillər səbəbindən Rusiyanın da digər ölkələrə neft ixracını azaltması vacibdir. Samarada söhbət, Ukraynaya hücum edən raketdaşıyıcıların yerləşdiyi Rusiyanın Qara dəniz donanmasının əsas bazası olan Novorossiysk limanından neft tədarük edən Kuybışev-Tixoretsk neft kəmərinə aiddir.

Bütövlükdə, Rusiya iqtisadiyyatı rəsmi olaraq qəbul ediləndən daha ciddi problemlər yaşayır və bir il ərzində real sistemli iqtisadi böhran riski var. "Rusiya büdcəsində artıq tükənmə əlamətləri müşahidə olunur. 2025-ci ilin birinci yarısında federal xəzinədarlığın gəlirləri, ilk növbədə, neft və qaz gəlirlərinin aşağı düşməsi səbəbindən, demək olar ki, 17% azalıb. Bu gəlirlər indi əhəmiyyətli endirimlə satılır", - Ukrayna Xarici Kəşfiyyat Xidməti bildirir. Ukrayna prezidenti Vladimir Zelenski öz növbəsində rusların öz hərbi maşınlarına pul xərclədiyini bildirib. "Hazırda onların iqtisadiyyatı çətin vəziyyətdədir və ehtiyac duyduqları vəsaitlər getdikcə azalır", - Ukrayna lideri qeyd edib.

ABŞ prezidenti Donald Trampın da Rusiyanın iqtisadi problemlərini etiraf etməyə başlaması diqqət çəkir. O, hətta Ukraynanın ilkin sərhədləri daxilində bütün ərazisini geri almaq üçün hər cür şansa malik olduğunu təklif edib. O, həm Ukrayna, həm də Rusiyadakı hərbi və iqtisadi vəziyyətlə tanış olduğunu və Rusiyanın iqtisadi çətinliklərini tam başa düşdüyünü qeyd edib. Ağ Evin rəhbəri hesab edir ki, Ukrayna Aİ-nin dəstəyi ilə ilkin sərhədləri daxilində bütün ərazisini döyüşmək və geri qaytarmaq iqtidarındadır.

2025-ci ilin yanvar-avqust aylarında Rusiya federal büdcəsinin xərcləri 21% artıb (23,1 trilyon rubldan 27,9 trilyon rubla). Bu arada, gəlirlər ilk növbədə qeyri-neft və qaz gəlirləri hesabına cəmi 3% artaraq 23,7 trilyon rubla çatıb. Nəticədə, Rusiya 2025-ci ilin ilk səkkiz ayında 4,2 trilyon rubla və ya ÜDM-in 1,9%-nə çataraq, 2024-cü ilin eyni dövrü ilə müqayisədə dörd dəfə çox olmaqla, onilliklər ərzində görünməmiş büdcə kəsiri yaşayıb.

V.VƏLİYEV

Paralel siniflər - biri şəhərdə, biri kənddə...

Azərbaycanda kənd və şəhər təhsili - fərqlər və çağırışlar

Təhsil, yalnız biliklərin ötürülməsi deyil, həm də cəmiyyətin inkişafının əsas dayağıdır. UNESCO və digər beynəlxalq qurumlar göstərir ki, bərabər təhsil imkanları ölkələrin sosial və iqtisadi göstəricilərinə birbaşa təsir edir. Azərbaycanda isə kənd və şəhər məktəbləri arasında ciddi fərqlər müşahidə olunur. Şəhər məktəbləri, müasir avadanlıq və ixtisaslı müəllim resursları ilə fərqlənir, uşaqlara geniş təhsil imkanları təqdim edir. Kənd məktəblərində isə infrastruktur problemləri, müəllim çatışmazlığı və məhdud rəqəmsal resurslar şagirdlərin potensialını tam inkişaf etdirməyə mane olur. Bu fərqlər yalnız akademik nəticələrdə deyil, həm də uşaqların sosial və psixoloji inkişafında özünü göstərir. Yazı boyunca Azərbaycanda təhsildə urban-rural fərqləri, onların səbəbləri və mümkün həll yolları araşdırılacaq. Məqsəd, yalnız statistik göstəriciləri təqdim etmək deyil, həm də real həyat nümunələri ilə bu bərabərsizliklərin cəmiyyət üzərində yaratdığı təsiri anlamaqdır.

Azərbaycanın şəhər məktəbləri müasir təhsil standartlarına uyğun avadanlıq və texnologiyalarla təmin olunub. Laboratoriyalar, kompüter sinifləri və kitabxanalar şagirdlərə yalnız dərs mövzularını öyrənmək deyil, eyni zamanda tədqiqat aparmaq və yaradıcı düşünmək imkanı verir. Şəhərdəki məktəblərdə rəqəmsal resurslara çıxış daha asandır. Onlayn dərs platformaları, elektron kitabxanalar və interaktiv təhsil materialları gündəlik tədrisin bir hissəsidir. Bu, uşaqların akademik və sosial bacarıqlarının erkən dövrdən inkişafına şərait yaradır.

Kənd məktəblərində isə vəziyyət fərqlidir. Bir çox məktəblərdə fiziki infrastrukturlar köhnəlib, laboratoriyalar və kitabxanalar ya məhduddur, ya da tam yoxdur. İnternet bağlantısının zəifliyi şagirdlərin rəqəmsal alətlərlə işləməsinə mane olur və distant təhsil imkanlarını məhdudlaşdırır. Kənd yerlərində müəllim çatışmazlığı da infrastrukturun səmərəli istifadəsinə mane olan amillərdəndir; müvafiq ixtisaslı müəllimlər şəhərlərə meyl edir, nəticədə kənd məktəblərində tədris keyfiyyəti dalğalanır.

Bu fərqlər yalnız texniki məsələlərlə bitmir. Məktəb binalarının vəziyyəti, siniflərin sayı və şagird-müəllim nisbəti də təhsilin keyfiyyətinə birbaşa təsir göstərir. Şəhərdə bir sinifdə ortalama 20-25 şagird olsa da, kənd məktəblərində siniflər bəzən 30-35 nəfərə çatır. Bu, müəllimin fərdi yanaşmasını çətinləşdirir və şagirdlərin dərsə cəlb olunmasını zəiflədir. Qısa olaraq desək, infrastruktur fərqləri şagirdlərin yalnız dərs nəticələrinə deyil, həm də öyrənmə motivasiyasına və gələcək imkanlarına təsir edir. Şəhər və kənd məktəbləri arasındakı uçurum, bir tərəfdən texnologiya və resurs çatışmazlığından, digər tərəfdən isə sosial və iqtisadi amillərdən qaynaqlanır.

Azərbaycanın təhsil sistemində müəllimlər tədrisin əsas dayağıdır. Şəhər məktəblərində ixtisaslı və təcrübəli müəllimlər, müasir təlim metodlarından istifadə edərək şagirdlərin fərdi bacarıqlarını inkişaf etdirməyə imkan tapırlar. İnteraktiv dərs üsulları, layihə əsaslı öyrənmə və qrup işləri şagirdlərin analitik düşüncəsini gücləndirir. Eyni zamanda, şəhər məktəblərində müəllimlər professional inkişaf kurslarına, seminar və beynəlxalq təlim proqramlarına çıxış imkanına malikdirlər. Bu, onların dərs texnikalarını yeniləməyə və innovativ yanaşmalar tətbiq etməyə şərait yaradır.

Kənd məktəblərində isə vəziyyət daha mürəkkəbdir, təcrübəli müəllimlərin şəhərlərə meyli, kənd məktəblərində müəllim çatışmazlığı yaradır. Bu, bəzən çoxfənli müəllimlərin bir neçə fənni eyni zamanda öyrətməsinə gətirib çıxarır və dərslərin keyfiyyətini zəiflədir. Müəllimlər resurs və təlim imkanlarının məhdudluğu səbəbindən ənənəvi metodlara, çox vaxt isə sadəcə dərs kitabına əsaslanaraq dərs keçmək məcburiyyətində qalırlar.

Bu fərqlilik yalnız dərs texnikaları ilə ölçülmür. Müəllimlərin kənddə şagirdlərlə ünsiyyət və motivasiya bacarıqları da şagirdlərin təhsil uğuruna təsir göstərir. Kənd yerlərində müəllimlər sosial-emosional dəstək rolunu da üzərlərinə götürürlər, çünki valideynlər bəzən təhsilin əhəmiyyətini dərk etməyə bilər və əlavə dərs resurslarına çıxış imkanları məhduddur. Şəhər məktəblərində isə bu yük daha çox psixoloq və əlavə təhsil proqramları vasitəsilə paylaşılır. Beləliklə, müəllim keyfiyyəti və təlim metodlarındakı fərqlər, kənd və şəhər məktəblərindəki akademik nəticələrə və şagirdlərin gələcək perspektivlərinə birbaşa təsir edir. Təhsil bərabərsizliyinin aradan qaldırılması üçün yalnız infrastruktur deyil, həm də müəllimlərin peşə inkişafına yönəlmiş strategiyalar vacibdir.

Şagirdlərin akademik uğuru təkcə məktəb resursları ilə deyil, həm də sosial və mədəni faktorlarla sıx bağlıdır. Şəhər məktəblərində oxuyan uşaqlar, müxtəlif dərs proqramlarına, əlavə kurslara və onlayn resurslara çıxış imkanına malikdirlər. Bu, onların riyaziyyat, dil və təbiət elmləri sahəsində daha yüksək nəticələr göstərməsinə şərait yaradır. Həmçinin, şəhər şagirdləri layihələrdə, müsabiqələrdə və beynəlxalq proqramlarda iştirak edərək öz yaradıcılıq və analitik bacarıqlarını inkişaf etdirirlər. Kənd məktəblərində isə vəziyyət fərqlidir. İnfrastruktur və müəllim çatışmazlığı şagirdlərin dərs performansına təsir göstərir. Bir çox hallarda kənd uşaqları müasir tədris metodlarından və əlavə dərs materiallarından uzaq qalır. Bu, yalnız akademik nəticələrdə deyil, həm də ali təhsil və karyera imkanlarına çıxışda fərqlilik yaradır. Kənd şagirdlərinin böyük əksəriyyəti yerli universitetlər və ya regional peşə kursları ilə kifayətlənir, nəticədə gələcək seçim imkanları məhdudlaşır.

Psixososial amillər də önəmlidir. Şəhər uşaqları, geniş sosial şəbəkə və müxtəlif sosial fəaliyyətlər sayəsində özünü ifadə etmə və liderlik bacarıqlarını inkişaf etdirə bilir. Kənd uşaqları isə daha məhdud sosial çevrə və resurslarla böyüdükləri üçün motivasiya və özünəinam məsələlərində çətinliklərlə üzləşirlər. Bu fərqliliklər yalnız fərdi səviyyədə qalmır, cəmiyyətin ali təhsilə çıxış və iş imkanlarına baxışı da onları qiymətləndirərkən urban-rural fərqləri güzgü kimi əks etdirir. Beləliklə, şagirdlərin perspektivləri və performansı yalnız akademik göstəricilərlə ölçülmür, həm də sosial mühit, əlavə resurslar və psixososial dəstək kimi faktorlarla formalaşır. Kənd və şəhər şagirdləri arasındakı fərqlilik, təhsil siyasətində hədəflənmiş müdaxilələri zəruri edir.

Təhsilin keyfiyyəti yalnız məktəb resursları və müəllim keyfiyyəti ilə ölçülmür. Ailə, icma və mədəniyyət də şagirdlərin uğuruna mühüm təsir göstərir. Şəhərdəki uşaqlar, valideynlərin yüksək təhsil səviyyəsi və peşə fəaliyyəti sayəsində öyrənməyə daha çox maraq göstərir, dərslərdə aktiv iştirak edir və əlavə öyrənmə imkanlarından istifadə etməyə meyllidirlər. Şəhər valideynləri, övladlarının akademik nailiyyətlərini davamlı izləyir, onları əlavə kurslar, repetitorlar və mədəni fəaliyyətlərə yönləndirirlər. Bu, uşaqların həm biliklərini dərinləşdirir, həm də gələcək karyera perspektivlərini genişləndirir. Kənddə isə valideynlərin təhsil səviyyəsi daha aşağı ola bilər və sosial, iqtisadi problemlər gündəlik həyatı daha çox təsir edir. Kənd ailələrinin çoxu övladlarının dərs proqramlarını izləməkdə, əlavə dərs resurslarına çıxış yaratmaqda çətinlik çəkir. Eyni zamanda, uşaqlar bəzən ailəyə yardım etmək, ev işlərinə qatılmaq və ya kənd təsərrüfatında işləmək məcburiyyətində qalır, bu da onların dərsə diqqətini və motivasiyasını azaldır.

Mədəni faktorlar da təhsilə təsir edir. Şəhər mühitində uşaqlar müxtəlif sosial qruplarla qarşılaşır, fərqli fikirlərə açıq olur və kreativ təfəkküründü inkişaf etdirir. Kənd icmalarında isə ənənəvi dəyərlər, sosial gözləntilər və stereotiplər təhsil seçimlərinə təsir edə bilər. Məsələn, bəzi kənd yerlərində qız uşaqlarının ali təhsilə davam etməsi sosial normlar səbəbindən məhdudlaşa bilər, nəticədə cəmiyyətin gələcək əmək bazasına qatqıları azala bilər. Bütün bu faktorlar göstərir ki, təhsil fərqləri yalnız məktəb daxilindəki resurslarla deyil, həm də sosial mühit və mədəniyyətlə sıx bağlıdır. Kənd və şəhər şagirdlərinin təhsil təcrübəsi, yalnız akademik göstəricilərlə deyil, həm də icma dəstəyi, ailə rol modelləri və mədəni resursların əlçatanlığı ilə müəyyənləşir. Təhsildə kənd və şəhər fərqlərini azaltmaq yalnız məktəb infrastrukturunu yaxşılaşdırmaqla mümkün deyil; həm də strateji dövlət siyasəti və sosial proqramların birləşdirilmiş təsiri tələb olunur. Azərbaycanın təhsil siyasətində son illərdə kənd məktəblərinə diqqət artırılsa da, hələ də əhəmiyyətli problemlər qalmaqdadır.

Birinci prioritet məsələ müəllim resurslarının ədalətli paylanmasıdır. Dövlətin kənd məktəblərinə ixtisaslı müəllimləri cəlb etmək üçün stimul proqramları hazırlaması, onların yaşayış və iş şəraitini yaxşılaşdırması lazımdır. Bu proqramlar təkcə maaş artımı ilə məhdudlaşmamalı, həm də professional inkişaf imkanlarını, təlim və seminarların kənd yerlərində təşkili ilə tamamlanmalıdır.

İkincisi, rəqəmsal təhsil imkanlarının genişləndirilməsi vacibdir. İnternet infrastrukturu və rəqəmsal resurslara çıxış kənd məktəblərində şagirdlərin öyrənmə imkanlarını əhəmiyyətli dərəcədə artırar. Virtual laboratoriyalar, onlayn dərs platformaları və interaktiv dərs materialları yalnız biliklərin dərinləşdirilməsinə deyil, həm də uşaqların kreativ düşüncə və tədqiqat bacarıqlarının formalaşmasına xidmət edər.

Üçüncü strategiya sosial dəstək proqramlarının gücləndirilməsidir. Valideyn maarifləndirməsi, icma layihələri və qeyri-hökumət təşkilatlarının iştirakı kənd yerlərində təhsilin sosial şəraitini yaxşılaşdırmaq üçün önəmlidir. Kənd ailələrinin təhsilə maraq və dəstəyini artırmaq, uşaqların motivasiyasını yüksəldir və nəticədə akademik göstəriciləri yaxşılaşdırır.

Dördüncü və strateji yanaşma, təhsil proqramlarının kənd mühitinə uyğunlaşdırılmasıdır. Ənənəvi dərs proqramlarının bəzən kənd uşaqlarının gündəlik həyat təcrübəsi ilə əlaqəsi yoxdur. Praktiki və icma əsaslı layihələr, kənd mühitində yaşanan problemlərin dərs mövzusuna çevrilməsi şagirdlərin dərsə marağını artırır və öyrənməni gündəlik həyatla bağlayır.

Qısa desək, dövlət siyasəti yalnız infrastruktur yatırımı deyil, həm də müəllim resursları, rəqəmsal texnologiyalar, sosial dəstək və tədris proqramlarının adaptasiyası ilə kompleks şəkildə aparılmalıdır. Bu yanaşmalar kənd və şəhər məktəbləri arasındakı fərqləri minimuma endirərək, uşaqların bərabər imkanlarla təhsil almasını təmin edə bilər. Gələcək perspektivdə əsas çağırış, yalnız infrastruktur və texnologiya yatırımı ilə kifayətlənməməkdir. Müəllimlərin peşə inkişafı, kənd valideynlərinin maarifləndirilməsi, sosial dəstək proqramlarının gücləndirilməsi və tədris proqramlarının kənd mühitinə uyğunlaşdırılması birgə şəkildə aparılmalıdır. Bu kompleks yanaşma, kənd və şəhər məktəbləri arasında fərqləri azaltmaq, bütün uşaqlar üçün bərabər təhsil imkanları yaratmaq və cəmiyyətin ümumi inkişafını təmin etmək üçün vacibdir.

Nəticə olaraq, Azərbaycanda təhsildə bərabərsizlik problemi, yalnız maliyyə və infrastruktur məsələsi deyil, həm də sosial və mədəni sistemlərin nəticəsi olaraq ortaya çıxır. Bu məsələyə ciddi yanaşma, həm dövlət siyasətində, həm də icma və ailə səviyyəsində dəyişikliklər tələb edir. Təhsildə bərabərsizlik aradan qaldırıldıqda, hər bir uşağın potensialı reallaşar və ölkənin sosial-iqtisadi inkişafına əhəmiyyətli töhfə verilmiş olar.

Nigar Şahverdiyeva

Aborta “dur!” demək öz əlimizdədir: necə?

26 sentyabr Beynəlxalq Kontrasepsiya Günüdür

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması “ istiqaməti çərçivəsində hazırlanıb

Planlı ailə = sağlam ailə

2007-ci ildən başlayaraq, hər il 26 sentyabr tarixi Beynəlxalq Kontrasepsiya Günü kimi qeyd olunur. Bu günün məqsədi - hər bir hamiləliyin arzuolunan şəkildə reallaşdırılması, əhali arasında kontrasepsiya barədə məlumatlılığı artırmaqdır. Ailə planlaşdırılmasının ayrılmaz hissələrindən biri də kontraseptiv üsulların seçilməsidir. Kontrasepsiya - hamiləliyin müxtəlif üsullarla qarşısını alır, arzuolunmaz hamiləlikdən qorunmanı təmin edir. Beləliklə, həm ailə arzuolunmaz hamiləlikdən qorunur, həm də qadın üçün abort təhlükəsi yaranmır.

1 ildə 78 min abort!

Ailələrin istənilən sayda uşaq sahibi ola bilmələri üçün tətbiq olunan üsullara ”ailə planlaması” deyilir. Xüsusilə qeyd edək ki, ailə planlaşdırılması doğumun qarşısını almaq, sonsuzluq yaratmaq demək deyil. Ailə planlaması bir növ nəzarət altında olan doğuş sayı deməkdir. Bu o deməkdir ki, siz planlaşdırılmış hamiləlik yaşayırsınız və abort statistikasının yüksəlməsində iştirak etmirsiniz. 2022-ci ildə ölkəmizdə 58 min abort qeydə alınıb. Onlardan 14 min 900-ü mini abort, 500-ü dərman vasitələri ilə aparılan abortlar olub.

Azərbaycanda 2024-cü il abort statistikasına görə ümumi abort sayı 78,245 olub. 15-17 yaş qrupunda olan qadınların abort sayı 72, 18-19 yaş qrupunda abort sayı 2,679, 20-24 yaş qrupu üzrə 13,054,

25-29 yaş qrupu üzrə 23,468, 30-34 yaş qrupu üzrə 23,645, 35-49 yaş qrupu üzrə 15,239 olub. 15-49 yaşlı qadınlar arasında hər 1 000 nəfərə 29,4 abort düşür. Abortların birinci hamiləlik kimi qeydə alınması halları 2,335 kimi qeydə alınıb.

Ailə planlaması nəzarətdən kənar hamiləlikdən qoruyur, ana-uşaq ölümlərinin qarşısını alır, qadın sağlamlığını qoruyur, körpələrin sağlam doğulmalarını və yaşamalarını təmin edir, yüksək riskli və arzu olunmayan hamiləliklərin qarşısını alır, daha gənc və ya ahıl yaşda istənməyən hamiləliyi önləyir.

Dünyanın bir çox ölkəsində ailələr ödənişsiz formada ailə planlaması seminarlarına cəlb edilir, subay və ya yeni ailə quran gənclər, övladı olan ailələr belə bu treyninqlərdə iştirak edirlər. Bəzi ölkələrdə doğum evlərində qoruyucu vasitələr də ödənişsiz paylanır, bu doğuşlar arası müddətin tənzimlənməsi üçün vacib hesab edilir. Həkimlər bildirirlər ki, doğuşlar arasında minimum 2 il müddət olmalıdır. Əgər birinci uşaqla ikinci uşağın arasındakı zaman bu qədər olmazsa uşağın və ananın həyatında təhlükə yarana bilər. Bu cür hamiləlikdən doğulan uşaqların azçəkili, fiziki qüsurlu olmaları ehtimalı böyükdür, bəzi hallarda ölüm səbəbləri də məhz bu olur.

Ailəni özün planla

Ailə planlaması bu zamanlarda qadınların köməyinə yetir. İndi tibbdə çeşidli qoruma vasitəsindən istifadə edilir ki, bunlar da prezervativ-örtüklər, qoruyucu dərmanlar, dərialtı implantlar və uşaqlıqdaxili spirallardır. Etibarlı və zərərsiz vasitə kimi daha çox uşaqlıqdaxili spirallar və dərialtı implantlar məsləhət görülür.

Prezervativlər bizim dilimizdə ”örtük” anlamını verir. Örtük-prezervativ kişi toxum hüceyrələrinin (spermlərinin) qadının vaginal zonasına tökülməsinin qarşısını almaq üçün istifadə edilən vasitədir və o ailə planlamasının tətbiqi üçündür. Həkimlər bildirir ki, əgər doğru şəkildə istifadə edilərsə örtüklər hamiləlikdən qorunmaq üçün 95-98% etibarlı üsuldur.

Digər üsul isə xüsusi gel-kremlər, xüsusi iynələr və hormonal dərmanlardır. Bu vasitələr spermöldürücüdür və 80-85% etibarlıdır. Amma həkimlərin bir çoxu bu üsulun o qədər də yaxşı seçim olmadığını deyirlər. Belə ki, hamiləlikdən qoruyan bu üsul qadın hormonlarında problem və dəyişiklik yarada bilər.

Həkimlər tərəfindən ən etibarlı və zərərsiz hesab edilən üsullardan biri uşaqlıqdaxili spirallardır. Bu üsulun tətbiqi zamanı uşaqlığın ağzı bağlanır və yumurtalarla spermaların birləşməsinin və hamiləliyin reallaşmasının qarşısı alınır.

Son illər həkimlərin məsləhət gördüyü daha bir qoruyucu vasitə dərialtı implantlardır. Qadının qoluna xüsusi iynə vasitəsi ilə yerləşdirilən implant bədəndə arzuolunmaz hamiləliyin qarşısını alır. İmplant maksimum 3 il müddətinə qoyula bilər, amma, əgər qadın bu müddətdən tez hamilə qalmaq istəyərsə, onu vaxtından əvvəl də çıxartmaq olar, implant çıxarılan kimi bədənin hormonal balansı əvvəlki qaydaya düşür.

Məlumat üçün bildirək ki, Beynəlxalq Ailə Planlaması Federasiyasınının 1995-ci ildə qəbul etdiyi ”Nəsil artırma və cinsi haqlar” haqqında xüsusi bildirişi var. Həmin bildirişə görə bütün qadınların nəsil artırma zamanı sağlamlığını qorunmaq üçün qoruyucu vasitələrdən istifadə etmə hüququ var. Sözügedən bildirişə görə qadınların ailə planlaması haqqında lazımlı məlumatlarla tanış olması və olunması da zəruridir.

Lalə Mehralı

SON SƏHİFƏ
səs
26 sentyabr
2025-ci il

Ödənişli zolaqlar yaradılır - tıxaclara çarə olacaqmı?

Nəqliyyat ekspertindən geniş izah

Son illərdə Bakıda avtomobillərin sayının sürətlə artması, yolların yüklənməsi və tıxacların gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi nəqliyyat sistemində yeni yanaşmaların tətbiqini zəruri edir. Bu baxımdan, ödənişli hərəkət zonalarının yaradılması planı diqqət mərkəzindədir. Bəs bu qərarın sürücülər üçün hansı üstünlükləri və çətinlikləri olacaq? Bəs bizdə necə tətbiq olunur?

Məsələ bağlı nəqliyyat eksperti Aslan Əsədov SİA-ya açıqlamasında bildirib ki, sözügedən mövzu ilə bağlı cənab Prezident İlham Əliyevin xüsusi fərmanı olmuşdur. Onun sözlərinə görə, fərman əsasında aidiyyəti qurumlara tapşırıq verilib ki, təkliflər hazırlanaraq dövlət başçısına təqdim edilsin: ”Burada məsələnin əsas mahiyyəti ondan ibarətdir ki, dövlət qurumlarının fəaliyyət prinsiplərinə və beynəlxalq praktikaya uyğun olaraq ödənişli yolların yaradılması, ictimai nəqliyyatın modernləşdirilməsi və bu sahədə idarəetmənin daha səmərəli təşkil edilməsi məsələləri diqqət mərkəzində saxlanılır.

Ödənişli yolların tətbiqi həm yol infrastrukturunun maliyyə dayanıqlığını təmin etmək, həm də yollardan istifadəyə görə məsuliyyət prinsipini gücləndirmək məqsədi daşıyır. Əsas məqsəd ondan ibarətdir ki, ödənişli yollar vasitəsilə toplanan vəsaitlər birbaşa olaraq yol infrastrukturunun saxlanılması, mütəmadi təmiri və texniki xidmətinin həyata keçirilməsinə, eləcə də ictimai nəqliyyat sisteminin inkişafına yönəldilsin. Bu yanaşma, həmçinin ictimai nəqliyyatdan istifadənin təşviqi və onun keyfiyyətinin yüksəldilməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

Bununla yanaşı, ictimai nəqliyyata olan ictimai münasibətin dəyişdirilməsi və bu sahədə etimadın artırılması da ön plandadır. Əgər vətəndaş yol üçün ödəniş edirsə, həmin yolun yüksək keyfiyyətlə saxlanılması, yol işarələrinin və işıqlandırmanın normal fəaliyyət göstərməsi, təhlükəsizlik tədbirlərinin təmin edilməsi dövlətin birbaşa məsuliyyəti çərçivəsində olmalıdır. Beləliklə, həm şəffaflıq, həm də vətəndaş məmnunluğu təmin ediləcək. Bu sahəyə birbaşa nəzarət Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən həyata keçiriləcəkdir. Nazirlik, prosesin effektiv koordinasiyası, müasir texnoloji həllərin tətbiqi, rəqəmsal monitorinq və hesabatlılıq sistemlərinin qurulması istiqamətində əsas icraedici orqan olacaqdır. Həmçinin bu proses çərçivəsində maraqlı tərəflərin - bələdiyyələrin, vətəndaş cəmiyyətinin və özəl sektorun iştirakı da nəzərdə tutulur. Ümumilikdə, bu təşəbbüs dövlətin nəqliyyat sahəsində uzunmüddətli strateji hədəflərini əks etdirir. Məqsəd yalnız cari problemlərin həlli deyil, həm də gələcək nəsillər üçün dayanıqlı, innovativ və vətəndaş yönümlü nəqliyyat sisteminin qurulmasıdır”.

Arzu Qurbanlı

“Evlilik öncəsi uyğunluq yoxlanılmalıdır”

“Cütlüklər ailə qurmazdan əvvəl aralarındakı münasibətləri və qarşılıqlı uyğunluğu analiz etməlidirlər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib. Onun sözlərinə görə, çox yaxşı olardı ki, evlilik öncəsi necə ki, tibbi analizlər aparılır, eyni zamanda psixoloji uyğunluq da yoxlanılsın: ”Təəssüf ki, bu hal-hazırda ölkəmizdə geniş şəkildə tətbiq olunmur və daha çox boşanma prosesində - istər dövlət qurumlarında, istərsə də özəl səviyyədə - aktivləşir. Evlilik öncəsi cütlüklərin bir-birilərinə uyğun olub-olmaması çox önəmlidir. Bu, ailədə yaşanacaq potensial böhranların vaxtında müəyyənləşdirilməsi baxımından da vacibdir. Etimad böhranları adətən ilk üç ildə, yeddinci ildə, doqquzuncu ildə və on üçüncü ildə daha çox müşahidə olunur. Bu dövrlərdə uşağın dünyaya gəlməsi, hər iki tərəfin - həm oğlanın, həm də qızın - ailələrinin müdaxiləsi və qarşılıqlı gözləntilərin reallaşmaması kimi faktorlar etimad böhranına səbəb ola bilir. Ümumiyyətlə, yeni ailə quran cütlüklərə müdaxilə minimum səviyyədə olmalıdır. Əvəzində yardım və dəstək xarakterli yanaşmalar daha faydalı olar”.

Günel Fərzəliyeva

“SƏS” qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

“CityNet”dən yeni abunəçilərə xüsusi endirim kampaniyası

Ölkənin aparıcı internet provayderi ”CityNet” yeni abunəçilər üçün xüsusi endirim kampaniyasına start verir. Kampaniya çərçivəsində www.citynet.az saytı üzərindən müraciət edən istifadəçilər ilk üç ay ərzində 25% endirimdən yararlana biləcəklər. Məsələn, ”CityNet”in yeni abunəçiləri yüksəksürətli ”Fiber100” tarifinə aylıq 25 AZN əvəzinə, cəmi 18.75 AZN ödəməklə qoşula bilərlər.

Qeyd edək ki, ”CityNet” yüksəksürətli internetlə yanaşı, eksklüziv TV xidmətləri də təqdim edir. ”CityNet TV” vasitəsilə istifadəçilər ”Digiturk”, ”BluTV”, ”Setanta Sports”, ”Dizi Channel”, ”FilmBox” kimi seçilmiş kanalları izləyə, həmçinin ”YouTube”, ”Netflix”, ”Amazon Prime” və ”Spotify” kimi populyar tətbiqlərə asanlıqla çıxış əldə edə bilirlər. Kampaniya çərçivəsində təklif olunan tariflərlə tanış olmaq və qoşulmaq üçün www.citynet.az saytına daxil ola və ya ətraflı məlumat üçün *1177 nömrəsi vasitəsilə ”CityNet” müştəri xidmətləri ilə əlaqə saxlaya bilərsiniz.

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**

Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000